DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev

www.scwra.gov.az

# CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 01 (351) / YANVAR 2021-Cİ İL



Mənə məlumat verilmişdir ki, dünən siz müharibə zamanı Azərbaycanın işğaldan azad olunmuş şəhərlərini ziyarət etmisiniz və özünüz vəziyyətin şahidi oldunuz. Hər şey tamamilə məhv edilib. Bizim bu barədə məlumatımız var idi. Çünki işğal edilmiş ərazilərdə vəziyyətlə bağlı bizdə müəyyən görüntülər var idi. Lakin səmimi desəm, biz dağıntıların bu qədər geniş vüsət almasını heç təsəvvürümüzə belə gətirə bilməzdik. Bu, onu nümayiş etdirir ki, torpaqlarımızı işğal altında saxlayan ölkə Azərbaycan mədəniyyətinin izini silmək istəyirdi. Azərbaycan xalqının irsini məhv etmək istəyirdi. Biz açıq-aydın başa düşürük ki, bu dağıntılar Birinci Qarabağ müharibəsindən sonra edilmişdir. Bu, müharibə zamanı edilməmişdir, çünki müharibə zamanı bu cür dağıntıları etmək mümkün deyil. Bu, Azərbaycan xalqına məxsus hər şeyi məhv etmək və gələcəkdə azərbaycanlıların geri qayıtmasına imkan verməmək üçün işğaldan sonra edilmişdir. Bu, bir daha onu nümayiş etdirir ki, demək olar, 30 illik danışıqlar ərzində Ermənistanın yalnız bir məqsədi olmuşdur, bu da danışıqları sonsuz və faydasız etmək idi və bu da baş verdi. Çünki demək olar ki, bu 30 illik danışıqlar prosesində heç bir nəticə yox idi. Yalnız danışıqlar, yalnız səfərlər, yalnız bəyanatlar var idi, lakin heç bir nəticə yox idi. Bu da təcavüzkara işğal olunmuş ərazilərin tarixi, mədəni və dini mənşəyini dəyişməyə cəhd etmək imkanını verdi.

Qanunsuz məskunlaşma siyasəti hərbi cinayətdir və onlar işğalın son dönəmində bu siyasəti heç gizlətmirdilər belə. Onlar dünyanın müxtəlif yerlərindən erməni mənşəli insanları gətirir və onları tarixi Şuşa şəhəri də daxil olmaqla tarixi Azərbaycan ərazilərində məskunlaşdırırdılar. Şəhər və kəndlərimizin adlarını dəyişirdilər, hətta xristian dini abidələrinin mənşəyini belə dəyişirdilər. Onlar xristian dininə ibadət edən qədim udilərin dini irsinin mənşəyini dəyişirdilər. Onlar qədim Qafqaz Albaniyasının kilsələrini erməni kilsələrinə çevirirdilər. Beləliklə, onlar cinayət predmeti olan bir çox əməllər törədiblər.

**Prezident İlham Əliyev**

ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malikin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edərkən söylədiyi nitqdən

*13 yanvar 2021-ci il*

## AZƏRBAYCANIN İŞĞALDAN AZAD EDİLMİŞ ƏRAZİLƏRİNDƏ TARİX VƏ MƏDƏNİYYƏT ABİDƏLƏRİ, MƏDƏNİYYƏT MÜƏSSİSƏLƏRİ ÜZRƏ İŞÇİ QRUPUN İCLASI KEÇİRİLİB

İşğaldan azad edilmiş ərazilərdə sosial-iqtisadi, humanitar, təşkilati və digər təxirəsalınmaz məsələlərin mərkəzləşdirilmiş qaydada həlli, eləcə də bu sahədə fəaliyyətin əlaqələndirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamına əsasən, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri Samir Nuriyevin sədrliyi ilə Əlaqələndirmə Qərargahı yaradılıb. Qərargahın nəzdində müxtəlif İşçi qruplardan ibarət İdarələrarası Mərkəz fəaliyyət göstərir.

Həmin qruplardan biri olan Tarix və mədəniyyət abidələri, mədəniyyət müəssisələri üzrə İşçi Qrupun əsas fəaliyyət istiqaməti işğaldan azad edilmiş ərazilərdə mədəni sərvətlərin hazırkı vəziyyətinin müəyyənləşdirilməsi, vurulmuş zərərin qiymətləndirilməsi, onların təsnifatının aparılması, habelə müvafiq qaydada bərpa işlərinin və mühafizənin təşkilidir.

Nəzərdə tutulmuş işlərin icrası ilə əlaqədar İdarələrarası Əlaqələndirmə Mərkəzinin rəhbəri, Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin iştirakı ilə İşçi Qrupun iclası keçirilib. İclasda Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, mədəniyyət naziri Anar Kərimov, təhsil naziri Emin Əmrullayev, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və digər şəxslər iştirak ediblər.

Qeyd olunub ki, hazırda işğaldan azad edilmiş ərazilərdə Azərbaycan xalqının milli-mədəni irsinin bərpası, mədəniyyət və dini abidələrin şəhərsalma qaydaları nəzərə alınmaqla yenidən qurulması, onların etibarlı mühafizəsinin təşkili gündəlikdə duran əsas məsələlərdir.

İclasda Azərbaycanın mədəniyyət mərkəzi olan Şuşa şəhərində ardıcıl mədəni tədbirlərin keçirilməsi, xüsusilə Vaqifin poeziya günlərinin və "Xarı bülbül" festivalının təşkili ilə bağlı məsələlər də nəzərdən keçirilib.

İşçi qrupun üzvü olan dövlət qurumlarının rəhbərləri işğaldan azad olunmuş ərazilərdə həyata keçirilməsi nəzərdə tutulan işlər barədə məlumat verib, bir sıra əlavə təkliflər səsləndiriblər.

# PREZİDENT İLHAM ƏLİYEV: “BİZ BÜTÜN DİNLƏRİN MƏBƏDLƏRİNİ QORUYURUQ VƏ QORUYACAĞIQ”

“Biz bütün dinlərin məbədlərini qoruyuruq və qoruyacağıq. Heç kimdə şübhə olmasın. Artıq bunu müstəqillik tarixi də göstərib, müstəqillikdən əvvəlki tarix də göstərib”. Bu fikri Prezident İlham Əliyev Şuşa şəhərindəki Saatlı məscidini ziyarət etdikdən sonra səsləndirib.

“Bütün dinlərin abidələri bizdə qorunur – kilsələr, sinaqoqlar, o cümlədən erməni kilsəsi Bakının mərkəzində dövlət tərəfindən qorunur, təmir edilib. Onlar nə ediblər? Mən Zəngilanda olarkən dağıdılmış, divarları qalmış məscidin önündəki çıxışımda Azərbaycan xalqına müraciət edərək dedim onlar nə ediblər, beynəlxalq təşkilatlara müraciət edərək dedim ki, gəlin baxın, hesabatı burada hazırlayın, öz kabinetlərinizdə yox. Ermənistan rəhbərliyinin və onun havadarlarının yalan məlumatlarına inanmayın, gəlin öz gözlərinizlə baxın nə günə salıblar bizim məscidlərimizi. Sadəcə olaraq, onlar görüntü yaratmaq üçün Yuxarı Gövhərağa məscidini guya bir xarici şirkətlə



birlikdə təmir etdiriblər. Bu təmir bizə lazım deyil. Bu təmir riyakarlıq rəmzidir, sadəcə olaraq, görüntü yaratmaqdır ki, guya Ermənistan rəhbərliyi məscidləri təmir etdirir. Əfsuslar olsun ki, bir ölkənin şirkəti bu çirkin əməllərdə onlarla şərik olub”, - deyə dövlətimizin başçısı bildirib.

Prezident İlham Əliyev deyib: “Yuxarı Gövhərağa məscidinin təmiri qəbuledilməzdir. Çünki bizim icazəmiz olmadan, qanunsuz olaraq torpaqlarımıza gəlib, orada aylarla oturub, Ermənistanın kriminal xunta rejimi ilə əlbir olub bu məscidi guya təmir ediblər. Bizə belə təmir lazım deyil və heç kimi aldatmasın, heç kim bu yalana uymasın. Biz bütün məscidlərimizi yenidən təmir etdirəcəyik, yenidən bərpa edəcəyik və bütün dünya görməlidir ki, mənfur düşmən bizim müqəddəs məbədlərimizi nə günə salıb”.

# “ŞUŞADA YERLƏŞƏN MƏSCİDLƏRİMİZ DƏ ƏSASLI ŞƏKİLDƏ TƏMİR EDİLMƏLİ VƏ ONLARIN ÖZ SİMASI QAYTARILMALIDIR!”

“Ermənilər bizim 60-dan çox məscidi məhv ediblər. Ağdam məscidində donuz, inək saxlayırdılar. Bu yaxınlarda hansısa erməni jurnalist tərəfindən internetdə dərc edilən foto bütün Azərbaycan xalqını bir daha hiddətləndirdi. O fotoda Azərbaycan xalqının cəlladı, Ermənistanın keçmiş prezidenti Köçaryan zəbt edilmiş, işğal olunmuş Ağdam şəhərində bizim məscidimizin önündə öz əlaltıları, quldurları ilə dayanıb. Ağdam məscidinin üzərində isə təhqiredici yazılar görünür. Görün, kim rəhbərlik edib Ermənistana, hansı cəllad, hansı alçaq mənəviyyat sahibi?! Şəhəri dağıdıblar, məscidimizi təhqir ediblər”.

Bu fikirləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 5-də Anar Kərimovu mədəniyyət naziri təyin olunması ilə əlaqədar videoformatda qəbulu zamanı səsləndirib.



O bildirib ki, məscidimizə inək, donuz doldurublar, məscidin divarlarına isə dinimiz haqqında, xalqımız haqqında təhqiramiz ifadələr yazıblar. Məscidi təhqir edən, məscidin üzərində təhqiramiz rəsmlər çəkdirən, sözlər yazan Köçaryan budur. Onun əlaltısı və quyruğu Sarkisyan, onlar dağıdıblar bizim şəhərlərimizi iyirmi il ərzində. Bizim şəhərlərimiz müharibə dövründə dağıdılmayıb. Müharibə dövründə şəhərləri belə dağıtmaq mümkün deyil. Müharibədən sonra işğal dövründə bütün binaları, bütün yaşayış yerlərini söküblər. Onlar vandallardır, barbarlardır. Amma iyirmi il Ermənistana rəhbərlik ediblər.

Prezident İlham Əliyev çıxışında qeyd edib ki, bizim dini abidələrimiz qorunur və qorunacaq: “Mənim göstərişimlə bizim bütün əsas dini abidələrimiz təmir olunub. Bir çoxları yenidən tikilib, o cümlədən mənim göstərişimlə Heydər məscidi yenidən tikilib. Bizim digər məscidlərimiz əsaslı təmir edilib. Onların təmiri simasını qorumaq şərtilə aparılıb. Azərbaycan bu sahədə də dünyaya göstərir ki, nə qədər zəngin mədəni irsə malikdir. Dünyanın ən qədim məscidlərindən biri olan Şamaxı Cümə məscidi ölkəmizdə yerləşir, 743-cü ildə inşa edilib, mənim göstərişimlə faktiki olaraq yenidən qurulub. Yaxud da ki, xristian dininə mənsub olan abidələr, alban kilsələri, Kiş kilsəsi, Xudavəng kilsəsi. Artıq işğaldan azad olunmuş Xudavəng kilsəsi öz sahiblərinə, bizim udi qardaşlarımıza qaytarılıbdır. Baxmayaraq ki, ermənilər bunun həm adını dəyişdirdilər, həm də orada aparılan saxtakarlıq işləri nəticəsində onun görünüşünü dəyişdirdilər, onu erməniləşdirmək istədilər, amma buna nail ola bilmədilər. Bizim udi qardaşlarımız artıq Xudavəng kilsəsində öz ibadətlərini etmişlər. Qafqaz Albaniyasına aid olan bütün digər kilsələr, o cümlədən Nic qəsəbəsindəki kilsə. Heydər Əliyev Fondu tərəfindən təmir olunan bu kilsə müharibə zamanı açılıb və bizə qarşı əsassız ittihamlar irəli sürənlərə ən gözəl cavab məhz budur. Müharibə zamanı alban-xristian kilsəsinin təmirdən sonra açılışı olubdur. Rus-pravoslav kilsələri, sinaqoqlar, katolik kilsə, gürcü kilsələri, Bakıda yerləşən erməni kilsəsi – bütün bunlar dövlət tərəfindən qorunur. Amma görün, bizim məscidlərimizi mənfur düşmən nə günə salıb. Altmışdan çox məscid işğal edilmiş və azad edilmiş torpaqlarda dağılıb və buna heç kim reaksiya vermir. Heç bir beynəlxalq təşkilat Ermənistanı qınamır”.

# AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA

Hörmətli həmvətənlər!

Müqəddəs Milad bayramı münasibətilə Azərbaycanın bütün xristian icmasını ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

Şərqlə Qərbin qovuşuğunda yerləşən Azərbaycanda yüz illərdir ki, ayrı-ayrı xalqlar və dinlər arasında qarşılıqlı hörmət və etimada əsaslanan yüksək birgəyaşayış mədəniyyəti, dostluq və qardaşlıq mühiti hökm sürür. Dünyada nümunəvi tolerantlıq məkanı kimi tanınan ölkəmizdə mütərəqqi milli-tarixi ənənələrin, etnik-mədəni müxtəlifliyin, multikultural dəyərlərin qorunub saxlanılması və daha da inkişaf etdirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən birini təşkil edir.

2020-ci il uzun müddət davam edən Qarabağ münaqişəsinin həlli, ərazi bütövlüyümüzün təmin edilməsi və tarixi ədalətin zəfər çalması ilə əlamətdar olmuşdur. Dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, hər bir Azərbaycan vətəndaşı, o cümlədən etno-mədəni zənginliyi ilə seçilən cəmiyyətimizdə özünəməxsus yeri olan xristian inanclı həmvətənlərimiz torpaqlarımızın düşmən işğalından azad edilməsində əsl qəhrəmanlıq nümunələri göstərmiş, eyni zamanda, erməni faşizmi ilə informasiya cəbhəsində və xalqımızın haqq səsinin dünya ictimaiyyətinə çatdırılması işində yüksək fəallıqla mübarizə aparmışlar. Ölkəmizdə yaşayan bütün xalqların müqəddəs Vətən müharibəsində nümayiş etdirdiyi birlik və bərabərliyi, sarsılmaz milli-mənəvi həmrəyliyi tarixi qələbəmizi şərtləndirən başlıca amil kimi qiymətləndirirəm.

Əminəm ki, pravoslav xristian icması ümumi evimiz olan Azərbaycanın tərəqqisi və daha da güclənməsi naminə qüvvə və bacarığını bundan sonra da əsirgəməyəcəkdir.

Əziz həmvətənlər!

Milad bayramı yeni həyatı, dirçəlişi, mərhəmət və şəfqət duyğularını təcəssüm etdirir. Qoy bu nurlu bayram ailələrinizə xoşbəxtlik, süfrələrinizə bərəkət, həyatınıza firavanlıq gətirsin.

Bayramınız mübarək olsun!

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
*Bakı şəhəri, 5 yanvar 2021-ci il.*

# BİRİNCİ VİTSE-PREZİDENT MEHRİBAN ƏLİYEVANIN TƏŞƏBBÜSÜ İLƏ AZƏRBAYCANDA 650 MİN AĞACIN ƏKİLMƏSİ AKSİYASI İSPANİYADA MÜKAFATA LAYİQ GÖRÜLÜB

"LG Electronics" şirkətinin İspaniya üzrə baş ofisinin Madrid şəhərində yerləşən mənzil-qərargahında ətraf mühitin qorunmasına töhfə vermiş ölkələrin mükafatlandırılması mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, "LG Electronics" şirkətinin İspaniya üzrə baş ofisi Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə 2019-cu ildə Azərbaycanda elan olunmuş "Nəsimi ili" çərçivəsində bir gündə 650 min ağacın əkilməsi aksiyasını yüksək qiymətləndirərək, buna görə ölkəmizi mükafata layiq görüb. Təşkilatçılar Azərbaycan tərəfindən planetimizin yaşıllaşdırılmasına və karbon-dioksid qazının həcminin azaldılmasına verilən töhfəni təqdir ediblər.



Sözügedən mükafatı ölkəmiz adından qəbul edən səfir A.Məhərrəmov mükafata görə "LG Electronics" şirkətinin İspaniya üzrə baş ofisinin prezidenti Xayme de Xaraisə təşəkkür edib. O, respublikamızda ətraf mühitin, fauna və flora ehtiyatlarının qorunmasının əsas prioritet istiqamətlərdən biri olduğunu qeyd edib. Tədbirin təşkilatçılarına və iştirakçılara Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə ölkəmizdə bu sahədə həyata keçirilən layihə və aksiyalar barədə ətraflı məlumat verilib. Bu nəcib aksiyaların qlobal iqlim dəyişikliyinin təsirlərinin azaldılmasına, ölkəmizdə, eyni zamanda, dünyada yaşıllığın artmasına verdiyi əhəmiyyətli töhfədən bəhs edilib.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu tərəfindən hələ 2007-ci ildən etibarən ölkəmizdə ətraf mühitin mühafizəsi məqsədilə "Hərəmiz bir ağac əkək!" aksiyasının həyata keçirilməyə başlandığı qeyd olunaraq, sözügedən layihə çərçivəsində ölkə ərazisində bir milyondan çox yeni ağacın əkildiyi diqqətə çatdırılıb.

Respublikamızda ətraf mühitin qorunması ilə bağlı geniş məlumatlandırma kampaniyası aparan, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə 2011-ci ildə fəaliyyətə başlamış IDEA (Ətraf Mühitin Mühafizəsi naminə Beynəlxalq Dialoq) İctimai Birliyinin ölkəmizin yaşıllaşdırılmasında əhəmiyyətli rolundan bəhs olunaraq, IDEA-nın BMT-nin Ətraf Mühit Proqramı (UNEP) ilə birlikdə "Yaşıl həftə" təşəbbüsünün uğurla həyata keçirildiyi, IDEA tərəfindən müxtəlif ölkələrdən olan gənc ekoloqların şəbəkələşməsinin təmin edildiyi diqqətə çatdırılıb.

Tədbir zamanı Çili və Çex Respublikası da ətraf mühitin qorunmasına verdikləri töhfəyə görə müvafiq mükafata layiq görülüblər.

# MÜBARİZ QURBANLI DQİDK-NIN VƏTƏN MÜHARİBƏSİNDƏ İŞTİRAK EDƏN ƏMƏKDAŞLARI İLƏ GÖRÜŞÜB

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı yanvarın 15-də Komitənin Vətən müharibəsində iştirak edərək ordudan tərxis olunan əməkdaşları ilə görüşüb.

Görüşdən əvvəl Ulu Öndər Heydər Əliyevin büstü önünə əklil qoyulub, şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Azərbaycanın əzəli tarixi torpaqları olan Qarabağın strateji əhəmiyyəti və önəmi, 30 ildən bəri erməni işğalı altında olan torpaqlarımızın azad edilməsi, qazanılan böyük zəfər barədə danışan Komitə sədri qələbəmizin əsasında məhz Müzəffər Komandan Prezident İlham Əliyevin hərbi sərkərdəlik keyfiyyətlərinin, prinsipial və qətiyyətli mövqeyinin, ən ekstremal şəraitdə belə uğurlu diplomatiya yürütməsinin dayandığını vurğulayıb. Qeyd edilib ki, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev Ulu Öndərin açdığı yol ilə Azərbaycanı tarixi Zəfərə apardı. Bu gün Azərbaycan öz tarixinin ən şərəfli günlərini yaşayır. Ali Baş Komandanın müdrikliyi, Milli Ordumuzun gücü, cəmiyyətdəki vətəndaş həmrəyliyi nəticəsində əldə olunan möhtəşəm qələbə Azərbaycan tarixinin qəhrəmanlıq səhifələrindən biridir.





Mübariz Qurbanlı ordudan tərxis olunan əməkdaşlara tarixi Zəfərimizin qazanılması uğrunda hərbi əməliyyatlarda iştirak edərək göstərdikləri şücaətlərə görə təşəkkürünü bildirib, gələcək həyatlarında uğurlar arzulayıb, hədiyyələr təqdim edib.

Ümumilikdə, Dövlət Komitəsindən 6 əməkdaş - Raman Dadaşov, Kamal Ələkbərbəyli, Turan Həsənzadə, Orxan Axundov, Cavid Məlikzadə, Rauf Quliyev Vətən müharibəsində iştirak edərək, tarixi Zəfərimizin qazanılmasına töhfələrini veriblər.

Qeyd edək ki, Prezident İlham Əliyevin Sərəncamları ilə DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin baş məsləhətçisi Turan Həsənzadə 4 medalla – "Füzulinin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Zəngilanın azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif edilib.

# GÜNDÜZ İSMAYILOV: "İŞĞAL ALTINDA OLAN 128 ALBAN MƏBƏDİNİN, DEMƏK OLAR Kİ, HAMISI ERMƏNİ QRİQORYAN KİLSƏSİNƏ ÇEVRİLİB"

"Ermənistan Azərbaycanın tarixi-dini, mədəniyyət abidələrinə münasibətdə konkret bir siyasət həyata keçirib".

Bu fikirləri Azərbaycan Televiziyasının "Əsas məsələ" proqramında çıxışı zamanı Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədr müavini Gündüz İsmayılov bildirib. Onun sözlərinə görə, bu siyasətin mahiyyəti ilk növbədə bizim izlərimizi oradan silməkdir. "Bunun üçün onlar üç istiqamətdə iş aparıblar. Birincisi, İslam məbədlərini, məscidləri, ziyarətgahları dağıdıblar. İkincisi, İslam məbədlərini başqa xalqın mədəniyyətinin nümunəsi kimi təqdim edib, yəni özgəninkiləşdiriblər. Üçüncü istiqamət alban məbədlərinə olan münasibət idi ki, burada isə onların siyasətinin mahiyyəti özününküləşdirmək xarakteri daşıyırdı", - deyə DQİDK-nın sədr müavini əlavə edib. Gündüz İsmayılov onu da bildirib ki, işğal altında olan 128 alban məbədinin, demək olar ki, hamısı, o cümlədən Xudavəng məbədi, Laçındakı Ağoğlan məbədi, Ağdərədəki Gəncəsər məbədi və Xocavənd rayonundakı Amasar kilsəsi erməni qriqoryan kilsəsinə çevrilib".



# DÖVLƏT KOMİTƏSİ KOLLEGİYASININ 2020-Cİ İLİN YEKUNLARI VƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNMUŞ İCLASI KEÇİRİLİB

Yanvarın 28-də Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) Kollegiyasının 2020-ci ilin yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş onlayn iclası keçirilib.

Ölkəmizin tarixinə 2020-ci ilin böyük Zəfər, Qələbə ili kimi yazıldığını qeyd edən DQİDK-nın sədri Mübariz Qurbanlı bildirib ki, 44 gün davam edən Vətən müharibəsində Azərbaycanın işğal olunmuş əraziləri cənab Müzəffər Komandan İlham Əliyevin rəhbərliyi ilə erməni qəsbkarlarından azad edildi, müstəqil Azərbaycan dövləti özünün ən şanlı dövrünə qədəm qoydu. Prezident İlham Əliyevin 2020-ci ilin yekunlarına həsr olunmuş müşavirədə də bildirdiyi kimi, bu gün ölkəmiz iqtisadi, siyasi və hərbi gücü sayəsində regionda aparıcı rola malikdir.

M.Qurbanlı qeyd edib ki, Dövlət Komitəsi 2020-ci ildə fəaliyyətini Ulu Öndərin müəyyən etdiyi dövlət-din siyasətinə uyğun istiqamətdə qurub və il ərzində Prezident cənab İlham Əliyevin rəhbərliyi altında qarşıya qoyulmuş məqsədlərə nail olmaq istiqamətində çalışıb. Komitə ötən il resurs və imkanlarını səfərbər etməklə pandemiya dövründə dini maarifləndirmə işinin aparılması, dini qurumların dövlət qeydiyyatına alınması, dini radikalizm və ekstremizmlə mübarizədə dinşünaslıq ekspertizasının keçirilməsi ilə bağlı işlər görüb. Həmin işlərin nəticəsidir ki, pandemiya dövründə və 44 günlük Vətən müharibəsində istər müsəlman, istərsə də qeyri-müsəlman vətəndaşlarımız, ölkəmizdəki bütün dini konfessiyalar vahid mövqe nümayiş etdirərək həmrəylik nümunəsi göstəriblər.



Müzəffər Ali Baş Komandanımız cənab İlham Əliyevin işğaldan azad olunan torpaqlarımızda məscidləri ziyarət etməsi, eləcə də tarixi-dini abidələrimizin bərpa edilməsi istiqamətində verdiyi tapşırıqlara diqqət yetirən Komitə sədri bütün bunların dövlətin dinə qayğısının bariz nümunəsi olduğunu vurğulayıb. Qeyd edilib ki, Vətən müharibəsi dövründə Dövlət Komitəsi öz üzərinə düşən vəzifəni layiqincə yerinə yetirib. Eyni zamanda, Vətən müharibəsində Komitənin 6 əməkdaşı iştirak edib. Ermənistanın hərbi təcavüzünün qarşısının alınması, mülki əhalinin təhlükəsizliyinin təmin edilməsi və işğal altında olan torpaqlarımızın azad olunması üçün müzəffər Ordumuzun həyata keçirdiyi zəruri əks-həmlə tədbirlərinə dəstək məqsədilə Dövlət Komitəsinin rəhbərliyi və kollektivi könüllü olaraq Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fonduna vəsait köçürüb. Mənəvi Dəyərlərin Təbliği Fondu və Azərbaycan İlahiyyat İnstitutunun kollektivləri də bu aksiyada fəal iştirak ediblər. Həmçinin Prezident cənab İlham Əliyevin "Biz birlikdə güclüyük!" çağırışına qoşularaq Koronavirusla Mübarizəyə Dəstək Fonduna ianə məqsədilə könüllü olaraq bu günə qədər Dövlət Komitəsi, Mənəvi Dəyərlərin Təbliği Fondu, Azərbaycan İlahiyyat İnstitutu vəsait köçürüb.

Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin direktoru Vüqar Babayev 2020-ci ildə agentliyin fəaliyyəti ilə bağlı məruzə ilə çıxış edərək bildirib ki, hesabat ilində Naxçıvan Muxtar Respublikası Qazısı yanında Şura ilə birlikdə Muxtar Respublikanın şəhər və rayonlarında dini ayinlərin icraçıları və yerli dindarlarla görüşlər keçirilib, yas mərasimlərinin düzgün formada idarə olunması haqda müvafiq tapşırıqlar verilib, ilin əvvəlində din xadimlərinin attestasiyası keçirilib. Habelə, dini təyinatlı ədəbiyyatların, əşyaların və dini məzmunlu başqa məlumat materiallarının Naxçıvan ərazisində yayılmasına nəzarətin həyata keçirilməsi prosesi il ərzində prioritet olub. Hesabat ili ərzində ekspert rəyi verilməsi üçün müvafiq orqanlardan agentliyə 349 adda 1300 ədəd dini təyinatlı ədəbiyyat daxil olub ki, aparılan araşdırma nəticəsində dövlətçiliyimizə zidd, məzhəb ayrı-seçkiliyi salan və ifrat məzhəbçilik prinsipini təbliğ edən 271 adda 342 ədəd dini təyinatlı ədəbiyyatın yayılmasının qarşısı alınıb. Vüqar Babayev qeyd edib ki, ötən il ərzində Naxçıvan şəhərində yeni məscid kompleksinin tikintisi, eləcə də Cəhri kənd və Ordubad şəhər "Came" məscidlərində təmir işləri davam etdirilib. Hesabat dövründə Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyi dövlət-din münasibətlərinin tənzimlənməsi və bundan irəli gələn vəzifələrin təkmilləşdirilməsi, radikal və dini nifrət yayan cərəyanlara qarşı müvafiq tədbirlərin həyata keçirilməsi, dini icmalar və cəmiyyətdə mili-mənəvi dəyərlərimizin təbliği istiqamətində maarifləndirmə işlərinin təşkili istiqamətlərində fəaliyyət göstərib.

Dini qurumlarla iş üzrə şöbənin müdiri Cahandar Əlifzadə hesabat məruzəsi ilə çıxış edərək 2020-ci ildə görülən işlər və ölkədəki mövcud dini durum barədə ətraflı məlumat verib. O bildirib ki, hesabat dövrü ərzində Dövlət Komitəsinin əsas fəaliyyət istiqamətlərindən biri olan dini icmaların dövlət qeydiyyatına alınması prosesi davam etdirilib, 2-si xristian olmaqla 14 dini icma dövlət qeydiyyatından keçirilib, bununla da icmaların sayı 955-ə çatıb. Eyni zamanda, 3 ixtisaslaşdırılmış satış məntəqəsinin fəaliyyətinə razılıq verilib. 2020-ci ildə Dövlət Komitəsinə daxil olmuş müraciətlər əsasında idxalı nəzərdə tutulan 3680 adda dini məzmunlu ədəbiyyat dinşünaslıq ekspertizasından keçirilib, dini dözümsüzlüyü və radikallığı təbliğ edən 52 adda kitabın ölkəyə idxalı və yayılmasının qarşısı alınıb. Nəşr olunmaq məqsədilə təqdim edilmiş 205 adda dini ədəbiyyata baxılıb, onlardan 6-nın çapı məqsədəuyğun sayılmayıb. Həmçinin, hüquq-mühafizə orqanları tərəfindən göndərilmiş 220 adda dini təyinatlı ədəbiyyata və digər məlumat materiallarına baxılıb, onlardan 63-nün zərərli, yaxud müvafiq razılıq alınmadan idxal və nəşr edildiyi müəyyən edilib. Hesabat dövründə 487 adda dini təyinatlı ədəbiyyata 679412 ədəd nəzarət markası verilib.

C.Əlifzadə qeyd edib ki, Covid-19 pandemiyası ilə əlaqədar ölkədə tətbiq olunan karantin rejiminə görə Tədbirlər Planında bəzi dəyişikliklər edilərək il ərzində keçirilməsi nəzərdə tutulan bir sıra tədbirlər təxirə salınıb, bəziləri videokonfranslar formatında keçirilib.

2020-ci ilin ərzində Dövlət Komitəsi tərəfindən ayrıca və digər qurumlarla birgə ümumilikdə 180-ə yaxın tədbir həyata keçirilib. Tədbirlərin təşkilində mərkəzi və yerli icra hakimiyyəti orqanları, Silahlı Qüvvələr, eləcə də hüquq mühafizə orqanları, təhsil müəssisələri, gənclər təşkilatları, dini qurumlar və digər QHT-lər ilə yaxından əməkdaşlıq edilib. Qeyd olunan qurumlarla yanaşı, Dövlət Komitəsi ötən illərin təcrübəsinin davamı olaraq, Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, Mədəniyyət Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycan Milli Elmlər Akademiyası, QMİ, Yeni Azərbaycan Partiyası ilə əməkdaşlığı davam etdirib. "Azərbaycanın dövlət-din modeli: dünyəvilik" mövzusunda Salyan rayonu və Yevlax şəhərində ikigünlük regional konfranslar, "Müasir reallıqlar kontekstində dövlət və din" mövzusunda Göygöl və Ağsu rayonlarında, həmçinin Gəncə və Şirvan şəhərlərində ikigünlük seminar-müşavirələr, "Dini təhsil, dini tərbiyə və dünyəvilik" mövzusunda Qubadlı, Balakən, Biləsuvar və Ucar rayon icra hakimiyyətləri ilə birgə seminar-treninqlər, "XXI əsrdən baxış: din və qadın" mövzusunda Şəki şəhərində ikigünlük regional konfrans, "Dövlət-din münasibətləri: tarix, hüquq və ənənə" mövzusunda Bakı şəhərinin Xocasən, Maştağa, Buzovna, Mərdəkan və Kürdəxanı qəsəbələrində seminar-treninqlər təşkil olunub. Azərbaycan Respublikası Baş Prokurorluğu, Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti və Dövlət Komitəsinin 2020-ci ildə dini ekstremizmə qarşı mübarizəyə dair birgə "Tədbirlər Plan"ı çərçivəsində "Dini məzhəbçilik meyillərinin dini təhlükəsizliyə təsiri" mövzusunda Hacıqabul rayonunda regional seminar-müşavirə keçirilib.

Vətən müharibəsi və ondan sonrakı dövrdə isə vətənpərvərliyi və vətəndaşlıq borcunu təbliğ edən "Vətən borcu", "Din xadimləri və dindarların vətənpərvərlik istiqamətində apardığı işlər və şəhid dəfnlərinin təşkili", "Şəhidlik", "Qazilik", "Şəhidlər ölməz, Vətən bölünməz", "Qan donorluğuna İslam dinində baxış", "Zəfər bizimdir", "Cəbhədəki qələbələrimiz və bayrağımız", "Qələbəmiz mübarək" kimi mövzularda onlayn tədbirlər keçirilib. Karantin rejiminin tələblərinə uyğun olaraq, Dövlət Komitəsinin Mərkəzi Aparatı və yerli şöbələri tərəfindən pandemiya dövründə də ölkə ərazisində dövlət-din münasibətlərinin tənzimlənməsi, o cümlədən çətin keçən bu günlərdə cəmiyyətimizin maddi və mənəvi cəhətdən səfərbər olunması, insanların mənəvi cəhətdən sıx birləşməsi istiqamətində videokonfrans formatında bir sıra maarifləndirici tədbirlər həyata keçirilib.

Hesabat dövründə dini durumun öyrənilməsi sahəsində tədbirlərin davam etdirildiyini qeyd edən şöbə müdiri mütəmadi olaraq monitorinqlərin keçirildiyini vurğulayıb. O qeyd edib ki, il ərzində müsəlman dini icmaları Ramazan və Məhərrəmlik ayları mərasimləri, Qurban bayramı, xristian dini icmalar Pasxa və Milad, yəhudilər Purim, Pesax və Roş-Ha-Şana bayramları qeyd ediblər. Bunlardan Purim bayramı istisna olmaqla, digərləri karantin rejimi dövrünə təsadüf edib. 2020-ci ildə karantin rejimi dövründə dini ayinlərin icrası ilə yanaşı yas mərasimlərinin Pandemiya ilə bağlı müəyyən olunmuş qaydalar çərçivəsində keçirilməsi xüsusi nəzarətdə saxlanılıb, Dövlət Komitəsinin bölgə şöbələri, QMİ-nin bölgə nümayəndəlikləri, yerli icra hakimiyyətləri və hüquq-mühafizə orqanlarının birgə tədbirləri nəticəsində bu sahədəki pozuntular aradan qaldırılıb.

Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov hesabat dövründə görülən işlər barədə məlumat verərək qeyd edib ki, İnstitut 2020-ci il üzrə fəaliyyətini müvafiq iş planına əsasən yerinə yetirib. Qlobal pandemiya ilə əlaqədar respublikamızda həyata keçirilən tədbirlər çərçivəsində ölkə üzrə tədris və təlim-tərbiyə prosesinin mart ayından etibarən dayandırıldığına görə tədris prosesinin məsafədən aparıldığını deyən A.Şirinov bu məqsədlə İnstitutun "Microsoft Teams" platformasına qoşulduğunu diqqətə çatdırıb.

davamı səh. 5

# DÖVLƏT KOMİTƏSİ KOLLEGİYASININ 2020-Cİ İLİN YEKUNLARI VƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNMUŞ İCLASI KEÇİRİLİB

əvvəli səh. 4

Rektor bildirib ki, 2020-2021-ci tədris ilində Azərbaycan İlahiyyat İnstitutu İlahiyyat fakültəsinin I tədris ilinə Dinşünaslıq ixtisası üzrə 35 tələbə, İslamşünaslıq ixtisası üzrə 36 tələbə və 3 əcnəbi tələbə, Dinşünaslıq ixtisasına magistratura səviyyəsi üzrə 3 magistrant, doktorontura səviyyəsi üzrə isə 2 nəfər doktorant qəbul olunub. Tələbələrin təhsildə yüksək nəticələr əldə etmələri və dünyagörüşlərinin formalaşması məqsədilə tədris ili boyunca onlarla fərdi görüşlər aparılıb. Sosial müdafiəyə ehtiyacı olan 44 tələbə müəyyən edilərək, Mənəvi Dəyərlərin Təbliği Fonduna sosial yardımla bağlı müraciət ünvanlanıb, həmin tələbələr Fondun hesabına aylıq əlavə təqaüdlə təmin olunublar.

2020-ci ildə Azərbaycan İlahiyyat İnstitutu məzunlarının diplomlarının Türkiyə Respublikası Ali Təhsil Şurası (Yüksək Öyrətim Kurulu – YÖK) tərəfindən tanındığını deyən Aqil Şirinov bunun öz növbəsində, Ali tələbələrinə Türkiyədə asanlıqla magistratura və doktorantura pillələri üzrə təhsil almaq imkanı yaratdığını vurğulayıb. Hesabat ili ərzində Azərbaycan İlahiyyat İnstitutu ilə Türkiyənin Sakarya və Kocaeli Universitetləri arasında “Mövlanə” Mübadilə Proqramı, Türkiyənin Sivas Cümhuriyyət Universiteti ilə “Erasmus+” Mübadilə Proqramı Protokolu, Türkiyənin Sivas Cümhuriyyət Universiteti ilə Anlaşma Memorandumu imzalanıb. Eyni zamanda, Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Özbəkistan Respublikası Nazirlər Kabineti yanında Dini Məsələlər üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə keçirilmiş “Dini tolerantlıq dövlətin və cəmiyyətin inkişafında vacib amildir” mövzusunda beynəlxalq videokonfrans çərçivəsində Azərbaycan İlahiyyat İnstitutu və Özbəkistan Beynəlxalq İslam Akademiyası arasında Anlaşma Memorandumu imzalanıb.



Daha sonra Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondunun 2020-ci il ərzində fəaliyyətinə dair hesabatla Fondun icraçı direktoru Mehman İsmayılov çıxış edib. O bildirib ki, MDTF-nin fəaliyyətinin başlıca istiqamətlərindən biri dini qurumların vətəndaşların dini etiqad azadlığının təmin olunması sahəsində fəaliyyətinə dəstək verməkdir. 2020-ci ildə 984 nəfər din xadiminə Fond tərəfindən aylıq maddi dəstək göstərilib. Həmçinin Prezident cənab İlham Əliyevin 2 iyun 2020-ci il tarixli Sərəncamı ilə Fonda ayrılmış 100 min manat vəsait hesabına 22 qeyri-islam dini icmasına maliyyə yardımı verilib. Fondun Nizamnaməsinə uyğun olaraq il ərzində şəhid ailələri, Qarabağ əlilləri, aztəminatlı ailələr və tələbələrə, imkansız xəstələrə yardımlar etdiyini deyən M.İsmayılov bu yardımların bir hissəsinin dini icmalar vasitəsilə, bir hissəsinin isə birbaşa verildiyini deyib. Belə ki, xüsusi karantin rejimi ərəfəsində Fond tərəfindən aprel ayında 161 şəhid ailəsi və aztəminatlı ailələrə ərzaq yardımı göstərilib, bununla yanaşı, infeksiya ilə birbaşa mübarizə aparan 65 tibb işçisinə hədiyyələr təqdim edilib. Ramazan bayramı münasibətilə may ayında ölkə üzrə ümumilikdə 166 şəhid ailəsinin üzvləri və müharibə əlillərinə bayram sovqatı (ərzaq) paylanılıb, həmçinin Fond tərəfindən Qurban bayramı münasibətilə aksiya təşkil edilib, 16 şəhər və rayonda 2000-dən çox şəhid ailələri və aztəminatlı ailələrə qurban əti paylanıb. Fond tərəfindən Azərbaycan İlahiyyat İnstitutunun 44 tələbəsinə 100 manat məbləğində aylıq təqaüd verilib və adıçəkilən təhsil müəssisəsi tərəfindən təsis edilmiş “Heydər Əliyev mükafatı” maliyyələşdirilib. Qeyd edək ki, cari ilin noyabr ayından etibarən bu tələbələrdən 20 nəfərə verilən təqaüd artırılaraq 150 manat müəyyənləşdirilib. Həmçinin xüsusi karantin rejimi qaydalarına əsasən təhsilin onlayn formata keçirilməsi ilə əlaqədar olaraq 5 şəhid ailəsinin məktəbli üzvünə “Zəfər” Şəhid Ailələrinə Dəstək İctimai Birliyi vasitəsilə noutbuklar hədiyyə edilib. Vətən müharibəsi dövründə qismən səfərbərliyə cəlb edilmiş 100 aztəminatlı vətəndaşın ailəsinə Fond tərəfindən ərzaq yardımı edilib, eyni zamanda 50 aztəminatlı ailəyə maddi ehtiyaclarını qarşılamaq üçün 80 manat məbləğində alış-veriş kartları təqdim edilib. Cəbhə bölgəsində döyüş şəraitində fəaliyyətinə görə seçilən din xadimlərinə, dini ayinlərin və ritualların icrasını həyata keçirən 15 nəfərə maddi yardım göstərilib.

Mənəvi Dəyərlərin Təbliği Fondu tərəfindən mənəvi dəyərləri təbliğ edən 14 sənədli film və sosial videoçarx hazırlanıb, eyni zamanda Fondun dəstəyi ilə həyata keçirilən “Qarabağ üçün oxu 3” layihəsi çərçivəsində hazırlanan klip, bundan başqa, "Vətən borcu", “Azərbaycan Bibliya Cəmiyyəti”nin sifarişi ilə çəkilən “Mənəvi borc” filmi, Bakı şəhəri Yevangelist Məsihi Baptistlərinin “Aqape” dini icmasının təşkilatçılığı ilə rus və ingilis dillərində hazırlanan “Dağlıq Qarabağda məhv edilən Azərbaycan dini abidələri” adlı videoçarx ictimaiyyətə təqdim edilib.

Fond 2020-ci ildə müxtəlif müəlliflər tərəfindən təqdim olunan mənəvi dəyərlərin təbliği, dinlərarası dialoqun gücləndirilməsi, radikalizmlə mübarizəyə aid maarifləndirici və dini mövzularda 22 adda ədəbiyyatın nəşrinə maliyyə dəstəyi göstərib. Fondun dəstəyilə "Azərbaycan tolerantlığında alman irsinin izləri və memarlığı" adlı kitabın nəşr edilməsindən dolayı Almaniya Federativ Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Volfqanq Maniq Mənəvi Dəyərlərin Təbliği Fonduna təşəkkür məktubu ünvanlayıb.

Vətən müharibəsi dövründə Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində görülmüş işlərlə bağlı məlumat verən Dövlət Komitəsinin Xarici əlaqələr şöbəsinin müdiri Əli Həziyev bildirib ki, sentyabrın 27-dən noyabrın 10-dək Azərbaycanın Ermənistan tərəfinin hərbi hücumuna qarşı apardığı əks-hücum hərbi əməliyyatları ilə yanaşı, düşmənə qarşı informasiya müharibəsi də aparılıb. Ermənistan tərəfinin münaqişəni beynəlxalq miqyasda dini müstəviyə çəkmək cəhdlərinə cavab olaraq, ölkədə fəaliyyət göstərən müsəlman və qeyri-müsəlman dini konfessiya rəhbərləri ilə sıx əməkdaşlıq şəraitində birgə bəyanatlar qəbul edilib. Belə ki, Qafqaz Müsəlmanları İdarəsi, Azərbaycandakı yəhudi icmaları, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası, Azərbaycandakı Katolik dini icması və Yevangelist-Xristian protestant dini icmaları tərəfindən rus və ingilis dillərində verilən bəyanatlarda erməni vandalizmi pislənilib, Azərbaycan xalqı ilə həmrəylik nümayiş etdirilib. Azərbaycanda fəaliyyət göstərən dini icma rəhbərlərinin müharibədən zərər görmüş yerlərə səfər etməsi ilə yanaşı Bakı Avropa Yəhudiləri dini icmasının baş ravvini Şneor Seqalın rəhbərliyi ilə “İsrail-Azərbaycan palatası”nın üzvləri də 17 oktyabr 2020-ci il tarixdə Gəncəyə səfər edərək erməni hərbçiləri tərəfindən atılan raket zərbəsi nəticəsində evləri dağılan vətəndaşlarımıza dəstək nümayiş etdiriblər.

Eyni zamanda, müharibə vəziyyəti ilə bağlı Azərbaycan həqiqətlərinin ölkəmizdə fəaliyyət göstərən müsəlman və qeyri-müsəlman dini icmalarının rəhbərləri tərəfindən xarici ölkələrin müxtəlif rəsmi şəxslərinə və qurumlarına, dini sahə ilə məşğul olan xarici və beynəlxalq təşkilatlara, dini mərkəzlərə xarici dillərdə müraciətlərin ünvanlanması üzrə konsultativ iş aparılıb. Xüsusilə ABŞ Konqresinin üzvü Ceki Speyer tərəfindən Dağlıq Qarabağ münaqişəsi ilə bağlı 1 oktyabr 2020-ci ildə ABŞ Konqresinə təqdim olunmuş reallıqdan uzaq və yanlış səciyyəli 1165 saylı qətnamə layihəsinə etirazla bağlı ABŞ-ın ona yaxın dövlət və qeyri-dövlət qurumlarına müraciət ünvanlanıb.

Müharibə dövründə Azərbaycanın haqq səsinin videokonfrans formatında keçirilən beynəlxalq tədbirlərdə də müdafiə edildiyini vurğulayan Əli Həziyev bildirib ki, Türkiyənin Diyanət işləri başqanı Ali Erbaşın təşəbbüsü ilə İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin dini liderlərinin və dünyanın 60 ölkəsindən rəsmi şəxslərin iştirak etdiyi videokonfransa qatılan Dövlət Komitəsi sədrinin çıxışının böyük hissəsini Ermənistanın Azərbaycan xalqına və onun mədəni irsinə qarşı həyata keçirdiyi terror siyasətinə həsr edib. Eyni zamanda, ABŞ Dövlət Departamentinin dəstəyi, Polşa Xarici İşlər Nazirliyinin təşkilatçılığı ilə 16-17 noyabr 2020-ci il tarixdə keçirilmiş Din və etiqad azadlığının irəlilədilməsi üzrə üçüncü nazirlər konfransında Dövlət Komitəsinin sədri bir daha işğal zamanı ermənilər tərəfindən törədilmiş vandalizm aktlarından danışıb.

Hesabat ili ərzində Qafqaz Albaniyasının işğaldan azad olunmuş ərazilərdəki irsinin təbliği ilə bağlı materiallar, erməni vəhşiliyi və vandalizmini əks etdirən videoçarxlar, məscidlərimizin dağıdılması ilə əlaqədar məlumatlar xarici dillərdə yayılıb.

Şöbə müdiri bildirib ki, düşmənə qarşı aparılan informasiya müharibəsində, eləcə də sonrakı dövr ərzində sosial şəbəkə hesablarından mütəmadi olaraq Azərbaycan həqiqətləri, xüsusilə ölkəmizin multikulturalizm, tolerantlıq ənənələri üzərində formalaşmış dövlət-din siyasəti ilə bağlı məlumatlar ermənilərin xüsusi aktivlik nümayiş etdirdiyi səhifələrdə onların saxtakarlıqları faktlarla ifşa edilərək yayımlanıb.

Daha sonra Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov 2021-ci ilin fəaliyyət planı barədə məruzə edib, gələcək hədəflər, problem və perspektivlər geniş müzakirə edilib, kollegiyanın gündəliyində olan məsələlər və İş Planı ilə bağlı qərarlar qəbul edilib.

# QAFQAZ MÜSƏLMANLARI İDARƏSİ 20 YANVAR FACİƏSİNİN İLDÖNÜMÜ İLƏ BAĞLI VİDEOKONFRANS KEÇİRİB



Qafqaz Müsəlmanları İdarəsi (QMİ) 20 Yanvar faciəsinin 31-ci ildönümü ilə bağlı videokonfrans keçirib.

Tədbirdən əvvəl Qurani-Kərimdən ayələr oxunub.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı çıxış edərək deyib ki, dövlətimiz şəhidlərə və şəhid ailələrinə daim diqqət və qayğı göstərir.

20 Yanvar faciəsi barədə fikirlərini bölüşən Komitə sədri qeyd edib ki, bugünkü gənclik o hadisələr barədə kitablardan, filmlərdən öyrənirlər. O dövrdə Azərbaycanda pərakəndəlik var idi. Bu faciəni törədən sovet hakimiyyətinin bir məqsədi var idi -xalqımızın azadlıq əzmini qırmaq. O vaxtkı sovet rəhbərliyi ermənipərəst mövqeyi ilə seçilirdi. Lakin Azərbaycan xalqının əzmini qırmaq mümkün olmadı. Ulu Öndər Heydər Əliyevin hadisələrə sərt reaksiyası əhalidə böyük ruh yüksəkliyi yaratmışdı. Həmin hadisələr zamanı din xadimləri də böyük fədakarlıqlar göstərirdilər. Sovet hakimiyyəti təkcə Azərbaycanda deyil, bir çox ölkədə belə qırğınlar törətmişdi. Lakin Bakıdakı faciə onların arasında ən dəhşətlisi idi. 20 Yanvardan sonra Azərbaycandakı xalq hərəkatı milli azadlıq hərəkatına çevrildi. 20 Yanvar ölkəmizin müstəqillik salnaməsidir və bizim üçün and yeri yaradıb. Bu, Şəhidlər xiyabanıdır. Bu and yerindən nümunə götürən xalqımız heç zaman Vətən uğrunda şəhadətdən qaçmır. 44 günlük Vətən müharibəsində də igid oğullarımız bu şəhidlik məktəbindən nümunə götürərək torpaqlarımızı erməni işğalından azad etdilər.

QMİ-nin sədri Şeyxülislam Allahşükür Paşazadə bildirib ki, heç şübhəsiz, şəhidlərimizin müqəddəs ruhlarına ən böyük töhfə Qarabağ zəfərimiz, müstəqilliyimizin əbədiliyi, dövlətçiliyimizin artan qüdrəti, Vətənimizin tərəqqisidir. Ermənistanın 28 il davam edən işğalçılıq siyasətinə Azərbaycan xalqı 44 gün davam edən Vətən müharibəsi ilə son qoydu. Müzəffər Ali Baş Komandanının rəhbərliyi ilə qəhrəman Azərbaycan Ordusu tarixi ədaləti bərpa edərək işğal altında olan ərazilərimizi azad etdi. Uca Yaradanın köməyi, dövlət rəhbərimizin qətiyyəti, ordumuzun hünəri ilə Azərbaycanın dövlət bayrağı azad Qarabağda dalğalandı, məscidlərin minarələrindən azan səsi ucaldı. Müstəqil Azərbaycan dövləti qəhrəman övladlarının qanı bahasına İkinci Qarabağ savaşında qalibi oldu.

Qeyd edilib ki, Vətən müharibəsinin şəhidləri 20 Yanvar şəhidlərinin uca mənəviyyat yolunun davamçılarıdır. Şəhidlərimiz, qazilərimiz bizim qürur mənbəyimizdir. Uca Yaradan bütün şəhidlərimizə rəhmət eləsin, qazilərimizə şəfa bəxş etsin.

Qarabağ Zəfəri Uca Allahın lütfü ilə Müzəffər Ali Baş Komandan İlham Əliyevin güclü siyasi iradəsinin, qəhrəman Azərbaycan Ordusunun şücaətinin və sarsılmaz xalq-dövlət birliyinin parlaq nəticəsidir. Azərbaycan xalqının bütün zümrələri, etnik və dini mənsubiyyətindən asılı olmayaraq vətəndaşlarımız Prezident, Ali Baş Komandan ətrafında birləşib Azərbaycanın dəmir yumruğuna çevrilib işğalçıya zərbə endirdilər. Dövlətimizin başçısı hər birimiz üçün əziz, müqəddəs məkan olan Şuşada din xadimlərinin, Azərbaycandakı bütün dini konfessiyaların bu müzəffər gücün yaranmasında rolunu yüksək qiymətləndirdi. Biz, Azərbaycandakı bütün dini konfessiyaların rəhbərləri Vətən müharibəsi dövründə, hər zaman olduğu kimi, bir olduq, dövlətimizin haqlı mübarizəsinə, xalqın haqq işinə varqüvvəmizlə yardımçı olmağa çalışdıq. Dünya ictimaiyyətinin qarşısına, informasiya savaşına vahid qüvvə kimi çıxdıq. Azərbaycan həqiqətlərini var gücümüzlə yaydıq, dünyanın bütün nüfuzlu dini mərkəzlərinə birgə müraciətlər edərək erməni tərəfinin yalanlarını, mənəviyyatsız təbliğatlarını puç edə bildik. Dini müstəvidə erməni Kilsəsinin dinlə bir araya sığmayan ideoloji təhdidlərini heçə endirdik. Uca Yaradan Vətən müharibəmizin bütün şəhidlərinə rəhmət eləsin.

Azərbaycan dindarları və din xadimləri fəxr edirlər ki, cəmiyyətimizin bütün zümrələri kimi Vətən müharibəsinin ön və arxa cəbhələrində fəal şəkildə öz vətəndaşlıq borclarını və mənəvi missiyalarını yerinə yetirdilər. Ölkənin bütün bölgələrində din xadimlərimiz öz vəzifələrini yüksək səviyyədə yerinə yetirdilər. Xüsusən cəbhəboyu bölgələrin din xadimlərini qeyd etmək lazımdır. Qəhrəman şəhidlərimizin dini ayinlərini, dəfnini yüksək səviyyədə həyata keçirən qazılarımız, səlahiyyətli nümayəndələrimiz, imamlarımız gecə-gündüz şəhid ailələrinin yanında, onların mənəvi xidmətində oldular.

Xalqın yenilməz gücünü və tarixi ədalətin təntənəsini təmin edən bu siyasi iradəyə görə biz dindarlar dilindən və dinindən asılı olmayaraq ölkəmizin bütün vətəndaşlarına unudulmaz fəxarət anları yaşadan Zəfərin müəllifinə - Zati-aliləri İlham Əliyevə hədsiz minnətdarıq. Azərbaycan xalqı həqiqətən xoşbəxt xalqdır ki, onun taleyinə Ulu Öndər Heydər Əliyev kimi xilaskar lider, İlham Əliyev kimi müdrik dövlət xadimi, qalib sərkərdə və ölkəmizin Birinci vitse-prezidenti Mehriban Əliyeva kimi milli-mənəvi-dini dəyərlərimizin hamisi nəsib olub. Azərbaycan dövləti və cəmiyyəti üçün böyük xidmətlərinə görə İlham Əliyev həzrətlərinə və möhtərəm Mehriban xanıma bütün Azərbaycan dindarlarının dərin təşəkkür və minnətdarlığını ifadə etməkdən şərəf duyuram.

Qalib xalqın Müzəffər Sərkərdəsi, Qarabağın, Şuşanın fatehi, ədaləti bərpa edən xalq qəhrəmanı İlham Əliyev həzrətləri "Qarabağ Azərbaycandır!" şüarı ətrafında səfərbər olan Azərbaycan xalqının adını ucaltdı, siyasi lider olaraq onun ən ülvi arzularını gerçəkləşdirərək öz adını tarixin salnamələrinə həkk etdi. Azərbaycanı qalib ölkə, Azərbaycan xalqını zəfər çalmış xalq yüksəkliyinə qaldıran, ata vəsiyyətini yerinə yetirmiş Zati-aliləri hər bir siyasi xadimin arzu etdiyi ən böyük mükafatı-xalqının dəstək və həmrəyliyini, sonsuz məhəbbət və dərin etimadını qazandı.

Şeyxülislam Allahşükür Paşazadə deyib ki, Qafqaz Müsəlmanları İdarəsi dini mərkəz olaraq ümummilli mənafe kəsb edən məsələlərdə, dövlətimiz üçün taleyüklü məqamlarda malik olduğu geniş beynəlxalq əlaqələrindən hər zaman dəyərli şəkildə istifadə edib. "Vətən müharibəsinin ilk günlərindən Azərbaycan xalqına mənəvi dəstəyimizin ifadə olunduğu xalqa müraciətimizi bəyan etdik. Ardınca QMİ ölkəmizdəki dini konfessiyaların rəhbərləri ilə birgə Azərbaycan Prezidentinə ünvanlı həmrəylik müraciətini imzaladı. QMİ sədri olaraq Roma Katolik Kilsəsinin başçısı Zati-müqəddəsləri Papa Fransisk həzrətlərinə, Rus Pravoslav Kilsəsinin başçısı, Moskva və bütün Rusiya Patriarxı Zati-müqəddəsləri Kiril həzrətlərinə, Ümumgürcüstan Katolikos-Patriarxı Zati-müqəddəsləri II İlya həzrətlərinə, Türkiyə Cümhuriyyətinin Diyanət İşləri Başkanı Ali Erbaşa, İslam İnqilabının Böyük Rəhbərinin beynəlxalq məsələlər üzrə müşaviri Əli Əkbər Vilayəti, Əl-Əzhərin Şeyxi Əhməd Ət-Tayyib, Beynəlxalq İslam Üləmaları İttifaqının baş katibi Əli Muhyiddin Əl-Qaradaği, İslam Aləmi Liqasının baş katibi Məhəmməd Əbdülkərim Əl-İsa, Beynəlxalq İslam Xeyriyyə Fondunun idarə heyətinin sədri Abdullah Mətuq Əl-Mətuq, Amerika Əsas Yəhudi Təşkilatları konqresinin vitse-prezidenti Malkolm Honlayn, ABŞ Simon Vesental mərkəzinin başçısı Abraham Kuper, Beynəlxalq Etnik Anlaşma Fondunun prezidenti Mark Şnayer daxil yüzə yaxın tanınmış şəxsiyyətlərə, müxtəlif din və ictimaiyyət xadimlərinin ünvanlarına müvafiq məktublar yolladım.

İmzam ilə beynəlxalq təşkilatların ünvanına - BMT Baş katibi Antonio Quterreşə, ATƏT-in hazırda fəaliyyətdə olan sədri Edi Ramaya, İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Yusif bin Əhməd Əl-Useyminə, ICESCO, İRSİKA rəhbərlərinə ətraflı, müfəssəl məlumatların yer aldığı məktublar göndərilib.

Rəhbəri olduğum Şimali Qafqaz Xalqları Ali Dini Şurasının xətti ilə, habelə Direktorlar Şurasının üzvü olduğum KAİCİİD Beynəlxalq Dinlərarası Dialoq Mərkəzinin keçirdiyi, həmçinin digər çoxsaylı videokonfranslarda Azərbaycan Prezidentinin qətiyyət və əzminə dəstək olaraq ədalətli Vətən savaşımızın həqiqətlərini yaymışıq. İƏT, ICESCO, BMT-nin Sivilizasiyalar Alyansının rəhbərləri ilə videogörüşlər keçirmişəm. Türkiyəyə səfərim çərçivəsində İslam Əməkdaşlıq Təşkilatının mötəbər toplantısında iştirak etmişəm. Postsovet məkanı, Mərkəzi Asiya respublikaları, dünyanın bütün qitələrindəki qardaşlarımızla ünsiyyətdə olmuşuq.

Qafqaz Müsəlmanları İdarəsinin ünvanına Vətən savaşı günlərində dünyanın müxtəlif ölkələrindən daxil olan dəstək zəngləri, həmrəylik məktubları Azərbaycanın haqlı mübarizəsinə dayaq olub, informasiya cəbhəsində qələbəmizə töhfəsini verib.

Erməni tərəfinin işğalda olan ərazilərimizdə dini-mənəvi irsimizə qarşı həyata keçirdiyi vandalizm aktlarının miqyas və mahiyyəti barədə məqamları dünya ictimaiyyətinin, dini mərkəzlərin diqqətinə çatdırmaq QMİ-nin son dövr fəaliyyətində prioritet istiqamətlərdən biridir. Məscidlərimizin dağıdılması, həqarət olunması faktlarını, xristian məbədlərinin tarixi mənşəyinin saxtalaşdırılması kimi halları geniş dini ictimaiyyətə çatdırılması və erməni kilsə başçılarının - katalikoslar II Qaregin, I Aramın məsuliyyətsiz bəyanat və din adına yaraşmayan hərəkətlərinə dair dini mərkəzləri məlumatlandırmaq, onların davranışlarının qınanılmasına nail olmaq üçün əlimizdən gələni əsirgəməmişik", - deyə QMİ sədri əlavə edib.

Bildirilib ki, Vətən müharibəsi şəhidlərinin dəfn və anım mərasimlərinin təşkil edilməsi, din xadimlərinin fəaliyyətinin koordinasiya olunması işləri ilə bağlı müvafiq komissiya yaradılıb. Komissiyanın qərarı ilə dinindən asılı olmayaraq bütün Vətən müharibəsi şəhidlərinin yaşadığı yer üzrə və ya ümumi şəhidlər məzarlığında dəfn və anım mərasimlərinin təşkilində din xadimlərinin fəal iştirakı təmin edilib. Din xadimlərinin cəbhə bölgələrinə çoxsaylı səfərləri təşkil edilib. Bu səfərlər zamanı Qafqaz Müsəlmanları İdarəsinin ayırdığı maliyyə vəsaitləri, toplanan ianələr və din xadimlərimizin şəxsi vəsaitləri hesabına alınmış ərzaq və qeyri-ərzaq malları, əsgərlərimizə lazım olan ləvazimatlar hərbçilərimizə hədiyyə edilib.

Şəhid ailələrinin və qazilərin problemlərini aradan qaldırmaq məqsədilə Qafqaz Müsəlmanları İdarəsinin ayırdığı maliyyə vəsaitləri hesabına alınan yardımlar ünvanlarına çatdırılıb.

Komissiyanın tapşırığı ilə şəhid və qazi ailələrinin ziyarəti bu gün də davam etdirilməkdədir.

Komissiyanın ciddi ilə 1958 şəhidin son mənzilə yola salınması prosesində təchizat işlərinin maliyyə xərcləri QMİ tərəfindən təmin edilib. 816 şəhidin son mənzilə yola salınması prosesində təchizat işlərinin maliyyə xərcləri yerli icra hakimiyyəti ilə birgə təmin edilməklə həyata keçirilib.

QMİ-nin sədri qeyd edib ki, işğal olunmuş Azərbaycan torpaqlarında erməni vandalizminin acı nəticələri - vəhşicəsinə dağıdılmış şəhər və kəndləri seyr etmək nə qədər ağır olsa da, həmin məkanların tezliklə bərpası ilə bağlı nəzərdə tutulan genişmiqyaslı quruculuq işləri barədə dövlətimizin başçısının

davamı səh. 7

# QAFQAZ MÜSƏLMANLARI İDARƏSİ 20 YANVAR FACİƏSİNİN İLDÖNÜMÜ İLƏ BAĞLI VİDEOKONFRANS KEÇİRİB

əvvəli səh. 6

fikirləri bizi hədsiz sevindirir. Əminik ki, ən qısa zamanda Azərbaycanın Qarabağ torpaqları möhtərəm Prezidentimizin rəhbərliyi ilə öz yeni və gözəl görkəmi ilə hər birimizi sevindirəcək. Dövlətimizin başçısının ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva ilə bərabər Ağdam məscidini, Şuşadakı məscidləri ziyarəti hər birimizin qəlbində uca mənəviyyat örnəyi kimi həkk olundu. Əminəm ki, Azərbaycan və bütün dünya tezliklə görülən tədbirlərin sayəsində pandemiya bəlasından da qurtulacaq, həyat öz axarına qayıdacaq, məscidlər və ibadətgahlarımız öz fəaliyyətini bərpa edəcək və həmin məbədlərdən dindarların ibadət səsləri yüksələcək.

Azərbaycandakı dini konfessiyaların rəhbərləri və QMİnin Qazılar Şurasının üzvləri çıxış edərək Azərbaycan xalqının müstəqillik uğrundakı mübarizə tarixi, Qanlı Yanvar faciəsinin başvermə səbəbləri və nəticələri barədə məlumat veriblər. Bildirilib ki, 20 Yanvar Azərbaycan xalqının müstəqillik uğrunda mübarizə tarixinə öz möhürünü vurmuş bir gündür. Bu qanlı hadisə Azərbaycanın azadlıq mübarizəsi tarixində şərəf və qəhrəmanlıq səhifələrindən biridir. Faciənin ertəsi günü ailəsi ilə birgə Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələn ulu öndər Heydər Əliyev Qanlı Yanvar qırğınını törədənləri kəskin şəkildə pisləyən bəyanatla çıxış edib. 1993-cü ildə xalqın israrlı tələbi ilə hakimiyyətə yenidən qayıtdıqdan sonra Ümummilli Liderin təşəbbüsü ilə bu hadisəyə siyasi-hüquqi qiymət verilib, Milli Məclis həmin tarixi Ümumxalq Hüzn Günü elan edib. Bildirilib ki, 1990-cı il yanvarın 19-dan 20-sinə keçən gecə keçmiş sovet ordusunun hərbi hissələri və zirehli texnikası heç bir xəbərdarlıq etmədən Bakı və Sumqayıt şəhərlərinə, eyni zamanda, Azərbaycanın bir çox şəhər və rayonlarına yeridilib, nəticədə milliyyətindən, yaşından və cinsindən asılı olmayaraq günahsız mülki şəxslər amansızcasına qətlə yetirilib. 20 Yanvar hadisələri beynəlxalq hüquqa əsasən beynəlxalq cinayətlərin ən ağır növlərindən olan insanlıq əleyhinə cinayətdir.

Beynəlxalq ictimaiyyət bu kimi faciələrə layiqli hüquqi qiymət verməlidir.

Tədbirdə ölkəmizdəki müxtəlif dini konfessiyaların rəhbərlərinin adından 20 Yanvar faciəsi ilə bağlı bəyanat oxunub.

Videokonfransda, həmçinin Qazılar Şurasının yeni tərkibi də təsdiqlənib.

Sonda Vətən müharibəsi dövründə xüsusi fədakarlıq göstərən din xadimləri təltif ediliblər.

# ÖLKƏMİZDƏKİ DİNİ KONFESSİYALARIN RƏHBƏRLƏRİ 20 YANVAR FACİƏSİ İLƏ BAĞLI BƏYANAT VERİBLƏR

Ölkəmizdəki dini konfessiyaların rəhbərləri 20 Yanvar faciəsinin 31-ci ildönümü ilə bağlı bəyanat veriblər.

Bəyanatda deyilir: "Azərbaycan xalqının tarixi yaddaşına dərin hüzn, eyni zamanda, milli qürur və qəhrəmanlıq salnaməsi kimi həkk olunmuş Qanlı Yanvar faciəsinin növbəti ildönümü ərəfəsindəyik. Azərbaycan dövlətçiliyinin bərpası, milli müstəqilliyimiz uğrunda qurban getmiş, Uca Yaradanın nəzərində ən yüksək məqamlardan sayılan şəhidlik zirvəsinə ucalmışlara ehtiramımız tükənməz, əbədidir.

20 Yanvar xalqımızın milli müstəqillik, azadlıq uğrunda mübarizəyə hazırlıq ruhunun və yenilməz iradəsinin rəmzidir. 20 Yanvarda sovet ordusunun cəza tədbirlərinə məruz qalan xalqımız diz çökmədi, azadlıq əzmini itirmədi. Moskvadan xalqımızın mərd oğlu, müdrik dövlət xadimi Heydər Əliyev bütün təqiblərə baxmayaraq, doğma xalqı ilə həmrəy olduğunu nümayiş etdirib SSRİ rəhbərliyinin törətdiyi bu qanlı cinayətə kəskin etirazını bildirdi, onun təşkilatçılarını qəzəblə ittiham etdi, törədilmiş hadisəni hüquqa, demokratiyaya, humanizmə zidd təxribat kimi səciyyələndirdi. Şeyxülislam Allahşükür Paşazadə keçmiş SSRİ prezidenti Mixail Qorbaçova göndərdiyi ittiham dolu açıq məktubunda hadisələrə sərt və prinsipial münasibətini bildirdi. Siyasi lider və dini rəhbərin qətiyyətli mövqeləri xalqı ruhlandırdı, səfərbər etdi. Bir milyondan artıq insan təqiblərdən, hətta ölümdən belə qorxmayaraq şəhərin baş meydanına axışdı, azadlıq uğrunda qurban getmiş şəhidləri müqəddəs Vətən torpağına tapşırdı. Beləliklə, qanlı 20 Yanvar faciəsi müstəqil Azərbaycan dövlətinin tarixinə xalqımızın şərəf və qəhrəmanlıq salnaməsi, milli vəhdət nümunəsi olaraq həkk olundu.

1991-ci ildə müstəqilliyini elan etmiş Azərbaycan xalqı ərazi bütövlüyümüzə təhdidlərlə üz-üzə qaldı. Azərbaycanın müdrik lideri Heydər Əliyevin SSRİ politbürosundan məkr və hiylələrlə uzaqlaşdırılmasından sonra ölkəmizə ərazi iddialarını ortaya qoyan Ermənistan Azərbaycanda mövcud daxili çəkişmə, xaos və siyasi səriştəsizlik mühitindən yararlanaraq 20 faiz torpaqlarımızı işğal etdi. Azərbaycanın taleyi, hətta müstəqil dövlət kimi varlığı şübhə altında olduğu bir vaxtda xalqın çağırışları ilə ölkə rəhbərliyinə dəvət edilən Heydər Əliyev Azərbaycan dövlətçiliyini xilas etdi. Müstəqil Azərbaycanın bayrağını ilk dəfə Naxçıvanda qaldıran müdrik lider öz siyasi dühası ilə Azərbaycan Respublikasının siyasi, iqtisadi qüdrətini təmin etdi, dövlətimizi beynəlxalq müstəvidə tanıtdı. Ulu Öndər müəllifi olduğu müasir Azərbaycan dövlətçiliyinin gələcək qələbələrinin memarı oldu. Onun siyasi yolunun davamçısı, millət, dövlət naminə ata vəsiyyətinə əməl edərək Azərbaycan xalqının ən ülvi arzusunu yerinə yetirdi - işğalda olan torpaqlarımızı, Qarabağı, Şuşanı azad edərək xalqımıza qaytardı.

Beynəlxalq hüququ heçə sayan, sülh danışıqlarında qeyri-konstruktivlik nümayiş etdirən və silahlı təxribatlarından əl çəkməyən Ermənistanın 28 il davam edən işğalçılıq siyasətinə Azərbaycan xalqı 44 gün davam edən Vətən müharibəsi ilə son qoydu. Müzəffər Ali Baş Komandanının rəhbərliyi ilə qəhrəman Azərbaycan Ordusu ədaləti bərpa edərək işğal altında olan ərazilərimizi azad etdi. Torpaqlarımızda Azərbaycanın üçrəngli dövlət bayrağı dalğalandı, Azan səsi ucaldı. Müstəqil Azərbaycan dövləti qəhrəman övladlarının qanı bahasına İkinci Qarabağ savaşının qalibi oldu.

Bu zəfərə gedən yolun bünövrəsi, heç şübhəsiz ki, 20 Yanvarda qoyuldu. 20 Yanvar bizi müstəqilliyə, milli, dini dəyərlərin bərpasına aparan yolun ilk mübarizəsi və ilk mənəvi qələbəsi oldu. Qarabağ uğrunda müharibənin - Birinci Qarabağ müharibəsi, Aprel döyüşləri, Vətən müharibəsinin şəhidləri 20 Yanvar şəhidlərinin uca mənəviyyat yolunun davamçılarıdırlar. Şəhidlərimiz, qazilərimiz bizim qürur mənbəyimizdir. Şəhidlərimizin müqəddəs ruhlarına ən böyük töhfə Qarabağ zəfərimiz, müstəqilliyimizin əbədiliyi, dövlətçiliyimizin artan qüdrəti, Vətənimizin tərəqqisi və xalqımızın səadətidir. Biz inanırıq ki, Allahın köməyi və möhtərəm Prezidentimiz zati-aliləri İlham Əliyevin rəhbərliyi ilə xalqımız özünün bütün ülvi arzularına yetişəcək, işğaldan azad olunmuş doğma torpaqlarımız gülüstana çevriləcək, inşallah. Şükürlər olsun ki, Azərbaycan Prezidenti İlham Əliyev və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın xalq, dövlət naminə davamlı səyləri sayəsində ölkəmizin siyasi, iqtisadi qüdrəti daha da artır, beynəlxalq nüfuzu daha da güclənir, mədəni, dini-mənəvi dəyərləri ən yüksək səviyyədə qorunaraq inkişaf etdirilir. Bütün dünya Azərbaycan xalqının tolerantlığının, multikultural dəyərlərə ehtiramının, dövlət başçısı zati-aliləri İlham Əliyevin və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın dünyanın bəşəri əhəmiyyətli mədəni-mənəvi irs nümunələrinə və ölkəmizin ərazisindəki bütün dinlərə məxsus abidələrə, məscid, kilsə, sinaqoqlara diqqət və qayğısının əyani şahididir.

Azərbaycanın müstəqilliyi, milli dövlətçiliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuşlar sırasında müxtəlif din və millətə mənsub vətəndaşlarımız vardır. 20 Yanvarda, Vətən müharibəsində ölkədəki xristianlar, yəhudilər, digər millət və din mənsubları Azərbaycan xalqı ilə bir cərgədə, mübarizə meydanında çiyin-çiyinə olmuşlar. Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olmuş Milli Qəhrəman mübarizlərlə bərabər Aqarunovlar, Yakovlevlər, Polovinkolar, Senyuşkinlər kimi yəhudi, rus, ukraynalı və digər millətləri təmsil edən qəhrəman Vətən oğulları ilə fəxr edirik. Şəhidlərimiz bizim qürur mənbəyimiz, Azərbaycan torpağının əziz övladlarıdır. Uca Yaradan bütün şəhidlərimizə rəhmət eləsin, qazilərimizə şəfa bəxş etsin! Vətən sağ olsun!

Azərbaycanın tarixi dini mərkəzi olan Qafqaz Müsəlmanları İdarəsi xalqımız üçün bütün taleyüklü məqamlarda ölkəmizdəki bütün dini konfessiyalarla birlikdə haqq işimizin qələbəsi üçün var qüvvəsi ilə səy göstərmişdir. Din xadimləri gecəli-gündüzlü öz mənəvi missiyalarını, vətəndaşlıq borclarını ən yüksək səviyyədə həyata keçirmiş, dini ayinlərin icrası, şəhidlərimizin dəfni ilə bağlı xalqın, şəhid ailələrinin yanında və xidmətində olmuşlar. Qafqaz Müsəlmanları İdarəsi Vətən müharibəsi günlərində dini konfessiya rəhbərləri ilə birgə dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara, nüfuzlu dini mərkəzlərə müraciətlər ünvanlamış, ədalətli mübarizəmizin reallıqlarını, erməni tərəfinin törətdiyi vandal, barbar hərəkətlər barədə məlumatları yaymışdır. Məramımız Azərbaycanın dünya birliyi tərəfindən tanınan ərazilərini işğal etmiş təcavüzkar Ermənistanın beynəlxalq hüquqa zidd əməllərini, BMT-nin 4 qətnaməsini yerinə yetirməməsini və ölkəmizin öz ərazisində, öz torpaqları uğrunda apardığı haqq mücadiləsinin ədalətli səciyyə daşıdığı barədə həqiqətləri ictimailəşdirmək olmuşdur. Təəssüflər olsun ki, bəzən problemlərə qərəzli, ikili standartlar çərçivəsində yanaşan dünya bilməlidir ki, XX əsrdə ən qanlı terror aktları, insanlığa qarşı ağır cinayətlər sırasında Azərbaycan xalqına qarşı kütləvi terror — Qarabağ münaqişəsi, Xocalı soyqırımı, 20 Yanvar faciəsi də vardır, XXI əsrdə özgənin torpağını işğalda saxlamağa, mədəni, dini-mənəvi dəyərlərini məhv edən, kilsələrin tarixini saxtalaşdıraraq mənimsəməyə cəhd edən, məscidləri tövləyə çevirərək həqarət edən, dinc əhalini qətlə yetirən, şəhərləri viran qoyan, ruhlar məkanına çevirən torpaqlara od vuran irqçi-faşist xislətli erməni ekstremizmi mövcuddur. Dünya öz xalqını sülhə çağırmaq əvəzinə siyasi ambisiyaların ardınca gedən, bəşəri dəyərləri, ilahi çağırışları təlqin etmək əvəzinə bir əlində xaç, bir əlində silah xalqını işğala səsləyən, özgə torpaqlarında ölümə təhrik edən erməni ruhaniliyinin hərəkətlərinə qiymət verməlidir.

Bütün səmavi dinlər insan həyatını Uca Allahın yaratdığı müqəddəs dəyər kimi qiymətləndirir, ədalətə ümidi təlqin edir. Yəhudilikdə insan həyatının xilası önəm kəsb edir ki, bu, məlum on qadağada öz əksini tapmış, qan axıdılmasına yol verməmək bütün bəşər üçün vacib sayılmışdır. Xristianlıq qaranlıq gecədən sonra işıq gələcəyinə ümidi təlqin edir. Uca Yaradan Qurani-Kərimdə buyurur: "**İçərinizdə insanları yaxşılığa çağıran, xeyirli işlər görməyi əmr edən və pis əməlləri qadağan edən bir camaat olsun! Bunlar həqiqətən nicat tapmış şəxslərdir**" (Ali-İmran, 104).

Şəhidlik imanın, əqidə və amal uğrunda mübarizənin ən yüksək zirvəsidir. Biz, Qafqaz Müsəlmanları İdarəsinin sədri və ölkəmizdəki dini konfessiyaların rəhbərləri 20 Yanvar şəhidlərinin, eləcə də Vətənimizin bütövlüyü və milli müstəqilliyimiz ugrunda canlarını fəda etmiş bütün şəhid ailələrinə dərin hüznlə başsağlığı verir, qazilərə Uca Allahdan şəfa diləyirik. Bu ümummilli hüzn, eyni zamanda, xalqımızın birlik və vəhdətini təcəssüm etdirən qürurlu tarixin ildönümü gününü yüksək səviyyədə qeyd etmək, şəhidlərimizin əziz ruhlarını anmaq bütün vətəndaşların, o cümlədən, dindarların Allah, Vətən qarşısında müqəddəs borcudur.

Uca Allah bütün Vətən şəhidlərinə rəhmət eləsin!"

Bəyanatı Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Arxiyepiskopu Aleksandr, Azərbaycandakı Dağ yəhudiləri icmasının rəhbəri Melih Yevdayev, Bakıdakı Avropa yəhudiləri icmasının rəhbəri Aleksandr Şarovski, Alban-udi xristian dini icmasının sədri Robert Mobili imzalayıblar.

# VƏTƏN MÜHARİBƏSİ ŞƏHİDLƏRİ

*2020-ci il sentyabrın 27-si səhər saatlarında Ermənistanın atəşkəs rejimini növbəti dəfə pozmasına cavab olaraq Müzəffər Azərbaycan Ordusunun əks-hücuma keçməsi ilə başlayan "Dəmir Yumruq" əməliyyatı - 44 günlük Vətən müharibəsi illərdir həsrətində olduğumuz Qarabağın işğaldan azad olunması ilə nəticələndi. İllərin keşməkeşli sınaqlarından üzüağ çıxmış, bir əsrdə iki dəfə müstəqilliyini elan etməklə heç bir buxovu qəbul etmədiyini göstərmiş Azərbaycan xalqı bu müharibədə də mərdliyi və qəhrəmanlığı ilə bütün dünyada özündən söz etdirməyi bacardı. Əminliklə deyə bilərəm ki, bu məğrurluğun əsasında dayanan ən mühüm amil xalqımızın ədalətsizliklə qətiyyən razılaşmaması, özünün bütün sülhpərvər yönləri ilə yanaşı, hərbi qüdrətini məhz məqamında dəmir yumruğa çevirməklə göstərməsi, dolayısı ilə "mövzu Vətəndirsə, qalan hər şey təfərrüatdır" deyə bilməsi durur.*

*İşğalda olan torpaqlarımızı azad etmək üçün illərlə ən uyğun məqamı gözləyən xalqımız, bəlkə də, dünyada müharibə xəbərinə sevinən yeganə xalq kimi tarixdə qalacaq. Bu gün hər bir azərbaycanlı qələbəni yaşamaqla bərabər, bu yolda canını fəda edən Vətən övladlarının əziz xatirəsini də unutmur, daim onları yad edir və əbədiyyən qəlbində yaşadacaq. Çünki Vətən uğrunda canından keçən şəhidlərimiz, sağlamlığını itirən qazilərimiz 44 gün ərzində gələcək nəsillərimiz üçün örnək olacaq çox böyük bir tarix yazdılar. Ümumiyyətlə, torpağı vətən edən, onu müqəddəsləşdirən, özünü bu yolda qurban verən şəhidlərdir. Bu səbəbdən, onların hər birini tanımaq və tanıtdırmaq cəmiyyət olaraq hər birimizin borcudur. Bu mənəvi borcdan irəli gələrək, "Cəmiyyət və Din" qəzetinin 2021-ci ilin ilk sayından etibarən şanlı zəfər tariximizi yazan şəhidlərimiz haqqında böyük fəxarət hissi ilə öz oxucularına məlumat verəcək, onların şərəfli ömür yollarına birgə nəzər salacağıq.*



## Abakarov Nail Müzəffər oğlu

Nial 2001-ci ilin iyul ayının 24-ü Rusiya Federasiyasının Kazan şəhərində anadan olub. 2009-cu ildə Kazan şəhərinin 79 saylı internat məktəbinin 1-ci sinfində təhsilə başlayıb. Onun ailəsi 2011-ci ildə Rusiyadan Vətənə qayıdıb, Zaqatala şəhərində yaşamağa başlayıblar. Nail təhsilini 2011-ci ilin sentyabr ayından Zaqatala şəhər Şıxəli Qurbanov adına 3 nömrəli tam məktəbində, 2018-ci ilin sentyabr ayından isə Zaqatala şəhəri Nizami Hğseynov adına 2 saylı tam orta məktəbdə davam etdirib və 2020-ci ildə həmin məktəbi bitirib. 15 yaşından işləməyə başlayan Nail deyirmiş ki, 27 yaşıma kimi həyatımı qura bilməsəm, daha mənim üçün yaşamağın mənası qalmaz. Uşaqlıqdan idmanla məşğul olub və incəsənətlə maraqlanırmış. Gözəl rəsmlər çəksə də, daha çox musiqiyə marağı var idi. Bütün çətinliklərdə dostlarının və yaxınlarının yanında olan Nail doğmalarının yaddaşında gülərüz, zarafatcıl, yaşından asılı olmayaraq, hər kəsə hörmət bəsləyən, sakit təbiətli, ürəyiyuxa, incikliyini bürüzə verməyən, qəlbi təmiz, səbirli və vətənpərvər kimi qalıb.

Nail 2020-ci ilin iyul ayının 24-də Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) Zaqatala rayon şöbəsi tərəfindən ordu sıralarına çağırılır. Tərtər rayonunda yerləşən "N" saylı hərbi hissədə xidmətə başlayır və Vətən müharibəsinə qədər hərbi bacarıqlara yiyələnir. Müharibə ərəfəsində öz yaxınlarına hər şeyin yaxşı olduğunu, onun üçün darıxmamalarını və gələndən sonra hər şeyin yaxşı olacağını deyib. Həmçinin döyüşə gedəcəyini bildirib və ailəsindən xahiş edib ki, onu ziyarət etməyə gəlməsinlər. Vətən müharibəsinin fəal iştirakçılarından olan Nail Abakarov 36 gün döyüş yolu keçib. O, 2 noyabr 2020-ci ildə Tərtər rayonu ərazisində Ağdərə istiqamətində gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. İki gün sonra noyabrın 4-də isə Zaqatala rayonunun Aşağı Çardaxlar kənd qəbiristanında uğrunda canını fəda etdiyi Vətən torpağına tapşırılıb.

Əsgər Abakarov Nail Müzəffər oğlu ölümündən sonra hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə "Vətən uğrunda" və "Laçının azad olunmasına görə" medalları ilə təltif edilib.



## Abbasov Ağababa Səfər oğlu

Şəhidlik bir şərəfdir, şəhidlik milləti, bayrağı və torpağı uğruna canını fəda etməkdir. Qəhrəmanımız, 18 yaşlı Ağababa Abasov da bu yüksək məqama ucalan oğullardandır.

2002-ci ilin martın 14-də Şabran rayonunun Uzunboyad kəndində dünyaya gəlib. 2008-ci ildə Səməndər Musayev adına Uzunboyad kənd orta məktəbin 1-ci sinfinə daxil olub, 2019-ci ildə həmin məktəbi müvəffəqiyyətlə bitirib. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında ali təhsil almaq istəsə də, tale onu Quba Dövlət Sosial-İqtisadi Kollecinə yönəldir.

2020-ci ilin aprelində SHXÇDX-nın Şabran rayon şöbəsi tərəfindən ordu sıralarına çağırılan Ağababa təhsilini əsgərlikdən qayıtdıqdan sonra davam etdirmək istəyirdi. Hərbi xidmətə Ağcabədi rayonunda yerləşən "N" saylı hərbi hissədə başlayan şəhidimiz uşaqlıqdan idmanla məşğul olduğundan, yüksək fiziki göstəricilərə malik idi. Buna görə də kəşfiyyat taboruna seçilir. Kəşfiyyat qrupunun manqa komandiri kimi xidmətinə davam etdirir. Ağababanın ailə üzvləri sentyabrın 19-da onu görmək üçün Ağcabədiyə gedirlər. Valideynlərinə fəxrlə hərbi xidmətini müvəffəqiyyətlə icra etdiyinə görə "Təşəkkürnamə" aldığını deyən Ağababa bildirir ki, kəşfiyyat əməliyyatına gedəcək, ondan narahat olmasınlar.

18 yaşlı qəhrəmanımız Vətən mğharibəsində, xüsusilə, Fğzulinin azad edilməsi uğrunda gedən düyğşlərdə xüsusi qəhrəmanlıqla iştirak edib. 29 sentyabr 2020-ci ildə Aşağı Əbdürrəhmanlı kəndi istiqamətində döyüş tapşırığını yerinə yetirərkən yanında mərmi partlaması nəticəsində şəhid olub və Vətən müharibəsində 3 şəhid verən Uzunboyad kənd qəbiristanında dəfn olunub.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak etmiş və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə əsgər Abbasov Ağababa Səfər oğlu ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.



## Abbasov Şamxal Xasay oğlu

Uşaqlıqdan ən böyük arzusu hərbçi kimi Vətənin keşiyində durmaq olan Şamxal bu yolda canını əsirgəməyən qəhrəman oğullarımızdandır. O, 1995-ci il fevralın 14-də Beyləqan rayonunun Kəbirli kəndində zəhmətkeş kəndli ailəsində anadan olub. 2001-ci ildə Məmmədyar Fərzəliyev adına Kəbirli kənd 1 nömrəli tam orta məktəbin birinci sinfinə daxil olub, 2012-ci ildə həmin məktəbin 11-ci sinfini bitirib. 2013-cü ilin aprelində SHXÇDX-nın Beyləqan rayon şöbəsi tərəfindən həqiqi hərbi xidmətə çağırılan Şamxal Dövlət Sərhəd Xidmətinin Yevlax rayonunda yerləşən "N" saylı hərbi hissəsində sərhədçi əsgər kimi xidmət edir. Əsgər kimi öz öhdəsinə düşən vəzifələri vaxtında və dəqiq yerinə yetirən şəhidimiz "Vətən sərhəddən başlayır" deyimini dildə şüar edərək sərhədlərimizin keşiyində ayıq-sayıq dayanıb, müddətli hərbi xidmətini uğurla başa vurub. Xidmət ərzində "Fəxri fərman" və "Təşəkkürnamə"lər ilə təltif edilib.

Əsgərlikdən qayıtdıqdan sonra sənədlərini "Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı" kursuna verir. Kursu uğurla bitirən Şamxal Beyləqan rayonunda yerləşən "N" saylı hərbi hissədə MAHHXHQ əsgər kimi xidmətə başlayıb. Fiziki hazırlığı və peşəkarlığı ilə fərqlənən Vətən oğlu daha sonra xidmətinə korpus komandirinin mühafizə dəstəsində davam etdirib. 2020-ci ilin iyul ayında Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan-Ermənistan sərhədində -Tovuz rayonu ərazisində baş verən döyüşlərdən sonra ölkəmizdə böyük müharibənin başlanacağı ilə bağlı söz-söhbətlər gəzirdi. Həmin vaxt övladı cəbhədə olan bütün analar kimi Şamxalın da anası narahat olur, tez-tez bu barədə oğlunu sorğu-sual edirmiş. Ananın sözlərinə görə, şəhidimiz bu barədə bir dəfə də olsun danışmayıb.

2020-ci ilin 27 sentyabrında müharibə başladıqdan sonra Şamxal hər gün evlərinə zəng edər, ordumuzun uğurlarından danışar, onları arxayınlaşdırardı. Ancaq o, müharibənin ilk günlərindən əsgərləri ilə çiyin-çiyinə döyüşən general-mayor Mais Bərxudarovla birlikdə yaralanıb. Həkimlər döyüşlərə qayıtmamağı tövsiyə etsələr də, Şamxal yenidən döyüşlərə qatılır. Lakin başından aldığı ağır travma və ayağındakı qəlpələrin narahat etdiyini görən komandirləri onu oktyabrın 8-də evə - ailəsinin yanına göndərirlər. Evə qayıdan Şamxal yaralı olduğunu ailəsindən gizlətməyi bacarır. Növbəti gün isə yenidən hərbi hissəyə gedib döyüşlərə qatılmaq istəyini bildirsə də, ona icazə verilmir. Lakin bununla barışmayan Şamxal birbaşa korpus komandiri general-mayor Mais Bərxudarova müraciət edərək könüllü olaraq yenidən döyüşlərə qatılır. Vətən torpaqlarının işğaldan azad olunmasında yaxından iştirak edən Şamxal yaralı olmasına baxmayaraq, əsl qəhrəman kimi döyüşür, eyni zamanda komandirinin - general-mayor Mais Bərxudarovun təhlükəsizliyini təmin edirdi.

Onun döyüş yolu Füzuli, Cəbrayıl, Hadrut və Qubadlı rayonlarından keçir. Azad olunan hər qarış torpaq ona xüsusi ruh yüksəkliyi verir, qələbəyə inamını artırırdı. O da bu sevincini ailəsi bölüşür, tez-tez evlərinə zəng edib qələbəyə çox yaxınlaşdıqlarını deyirmiş. Lakin qələbəni görmək ona qismət olmur. Oktyabrın 20-də qızğın döyüşlərin davam etdiyi Qubadlı rayonunun Xanlıq kəndi istiqamətində şəhid olur, oktyabrın 21-də Beyləqan rayonunun Kəbirli kəndində torpağa tapışırılır. İndi Şamxalın uyuduğu məzarlıqda onunla bir kənddə böyüyüb boya-başa çatan daha 16 igidimiz uyuyur. Eyni amal - işğal altındakı torpaqlarımızın azadlığı uğrunda canından keçən şəhidlərimizin məzarı da yan-yanadır.

Qeyd edək ki, Şamxal subay idi, yaxınları deyir ki, Şamxalın ən böyük arzusu Şuşa şəhərində evinin olması idi. Valideynləri bir neçə dəfə ona ev almaq istəsələr də o, Şuşanın azad olacağı günün yaxın olduğunu deyərək hamıdan səbirli olmağı istəyirdi.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak etmiş və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin sərəncamları ilə əsgər Abbasov Şamxal Xasay oğlu ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilib.

**RAMİL HİKMƏT**

## ƏZİZ ŞUŞA ADINLA BÖYÜ!

Vətən müharibəsində şəhid olan kapitan Elcin Ağayevin övladı Şuşaya "ASAN xidmət"də şəxsiyyət vəsiqəsinin verilməsi xidməti göstərilib.

Şəhidimiz Şuşa şəhərinin düşməndən azad edilməsi əməliyyatlarında iştirak etməyi arzulayıb, bu şəhəri görmək istəyib. Buna görə də onun yeni doğulan övladına Şuşa adı verilib.

E.Ağayev 2020-ci il sentyabrın 27-də - Vətən müharibəsi başlayanda torpaqlarımızın işğaldan azad olunması uğrunda gedən döyüşlərə qatılıb. Bir sıra uğurlu əməliyyatlarda fəal iştirak edib. Qəhrəman zabitimiz ötən il oktyabrın 6-da Suqovuşan uğrunda gedən döyüşlərdə şəhid olub. O, oktyabrın 7-də doğulduğu kənddə torpağa tapşırılıb.

E.Ağayev göstərdiyi qəhrəmanlıqlara görə ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Suqovuşanın azad olunmasına görə" və "Laçının azad olunmasına görə" medalları ilə təltif edilib.

Allah şəhidimizə rəhmət eləsin!




## "YAŞAT" FONDU TƏRƏFİNDƏN AĞIR YARALANAN QAZİLƏRİMİZİN SƏHHƏTİNİN BƏRPASI İLƏ BAĞLI TƏDBİRLƏR DAVAM ETDİRİLİR

"YAŞAT" Fondu tərəfindən ağır yaralanan qazilərimizin səhhətinin bərpası ilə bağlı tədbirlər davam etdirilir.

Ciddi fiziki travma alan qazilərimiz Əmirəliyev Nicat Kərəməli oğlu, Qurbanov Əbülfət Tanrıverdı oğlu, Mirzəliyev Roman Aleksandr oğlu və Sultanlı Nicat Məmi oğlu "YAŞAT" Fondu tərəfindən zəruri tibbi müayinələrdən keçiriliblər və uğurla əməliyyat olunublar.

"YAŞAT" Fondu qazilərimizin müalicəsini tam yekunlaşana qədər nəzarətdə saxlayacaq. Allah qazilərimizə şəfa versin!

Fond tərəfindən bu günədək 1624 şəxs öhdəliyə götürülüb və onların problemlərinin həlli davam etdirilir.

Xatırladaq ki, "YAŞAT" Fonduna müraciət prosesini daha da asanlaşdırmaq, mütəmadi hesabatlar təqdim etməklə şəffaflığa nail olmaq məqsədilə yashat.gov.az portalı istifadəyə verilib.

Fondun hesabatlılığı ilə tanış olmaq üçün keçid: https://yashat.gov.az/report/tableau

Həmçinin Fondun 8110 "Çağrı" Mərkəzi fəaliyyət göstərir.



## ŞƏHADƏT YOLÇULARI

Keçən əsrin əvvəllərindən bu günədək Vətən uğrunda minlərlə şəhid vermişik. Mənim canlı şahidi olduğum Azərbaycan şəhidlik məktəbi 20 yanvardan başlayır, 44 günlük Vətən müharibəsinə qədər davam edir. Ölkəmizin yenidən müstəqillik qazanmasının ən böyük simvolu 20 Yanvar şəhidləri idisə, torpaqlarımızın əsarətdən qurtulmasının kulminasiya nöqtəsi 44 günlük Vətən müharibəsi oldu.

Əslində, 2016-cı ilin aprelindəki dördgünlük müharibə, 2020-ci ilin iyulunda baş verən Tovuz döyüşləri böyük qələbənin çox yaxında olduğuna bir mesaj idi. Sentyabrın 27-də başlayan əks-hücum əməliyyatı və 44 gün davam edən Vətən müharibəsi xalqımızın qəhrəmanlıq salnaməsinə qızıl hərflərlə yazıldı. Təbii ki, bu möhtəşəm qələbənin arxasında müzəffər Ali Baş Komandan, güclü ordu, yenilməz iradə, xalqda olan sarsılmaz inam və həmrəylik dayanırdı. Bu amillər, dövlət başçımızın da qeyd etdiyi kimi, "dəmir yumruğa" çevrilərək düşmənin başını əzdi, ona elə bir sarsıdıcı zərbə vurdu ki, bundan sonra o, uzun illər özünə gələ bilməyəcək.

Xalqımıza böyük qürur hissi yaşadan bu möhtəşəm qələbənin təmin olunmasında əsas pay sahibi rəşadətli Azərbaycan ordusu, şəhid və qazilərimizdir. 30 il ərzində Müqəddəs Vətənin azadlığı və torpaqlarımızın yadelli işğalçılardan qovulması uğrunda minlərlə şəhid verdik, minlərlə qazilərimiz oldu. Şəhid və qazilərimiz təkcə mənsub olduqları ailələrinə deyil, eyni zamanda hər birimiz üçün doğmadır, əzizdir. Çünki onlar canlarını bu Vətənin bölünməzliyi, millətin daim var olması üçün qurban verdilər. Onlar Vətənimizin təhlükəsizliyi, vətəndaşlarının xoşbəxt və müstəqil yaşamaları üçün, mədəniyyətlərini, dinlərini və adət-ənənələrini qorumaq, öz milli-mənəvi dəyərlərini yaşatmaq üçün canlarını fəda etdilər. Bu baxımdan şəhid və qazilərimiz millət olaraq hər birimizindir. Onları xatırlamaq, gələcək nəsillərə tanıtmaq hər birimizin ümdə vəzifəsidir. Ulu Öndər Heydər Əliyev bu haqda deyirdi: **"...şəhidlərin qəhrəmanlığı Azərbaycan xalqı üçün, Azərbaycan gəncləri üçün örnək olub. Bundan sonra da örnək olacaqdır. Mən tam əminəm ki, Azərbaycanın bugünkü nəsli də, gələcək nəsilləri də bu şəhidlərin qəhrəmanlığından nümunə götürəcəklər. Azərbaycan xalqının milli azadlığını qorumaq üçün, respublikamızın müstəqilliyini qorumaq üçün daim mübarizədə olacaqlar. Daim qəhrəmanlıq nümunələri, vətənpərvərlik nümunələri göstərəcəklər".**

Şəhidlik və qazilik məqamı hər kəsə nəsib olmur. Allah dərgahında şəhidlik zirvəsinin böyük mükafatı var. Onların canı cənnət qarşılığında Allah tərəfindən satın alınmışdır. Bu barədə Qurani-Kərimin "Tövbə" surəsinin 111-ci ayəsində belə buyurulur: **"Şübhəsiz ki, Allah möminlərdən canlarını və mallarını cənnət müqabilində satın almışdır. Onlar Allah yolunda vuruşar, öldürər və öldürülərlər. Bu, Tövratda, İncildə və Quranda Allahın öhdəsinə götürdüyü bir vəddir. Allahdan daha yaxşı əhdə vəfa göstərən ola bilərmi?! Elə isə, Onunla etdiyiniz bu alış-verişə görə sevinin! Məhz bu, böyük uğurdur".** "Bəqərə" sürəsinin 154-cü ayəsində isə buyurulur: **"Allah yolunda öldürülənləri "ölü" deməyin, əksinə, onlar (Allah dərgahında) diridirlər. Lakin siz, bunu dərk etmirsiniz".**

Beləliklə, qəhrəmanlığa gedən yol şəhidlərə və qazilərə göstərilən ali münasibətdən başlayır. Azərbaycan xalqı torpaqlarımızın azadlığı uğrunda canını qurban vermiş və müstəqillik, yenilməzlik, qəhrəmanlıq simvolumuza çevrilmiş şəhidlərimizi heç vaxt unutmayacaq, onların xatirəsini hər zaman uca tutacaqdır. Məhz onların sayəsində 30 ildir həsrətində olduğumuz torpaqlara qayıtdıq. Biz Vətən qarşısında borclu olmaqla yanaşı, həm də hər bir şəhid adının qarşısında borcluyuq. Bu borcumuzu isə onların var olması üçün canlarından keçərək bizə əmanət etdiyi Vətəni layiqincə qorumaqla və böyük qürurla gələcək nəslə miras buraxmaqla qaytara bilərik.

Şəhidlərimizin ruhu qarşısında baş əyir, yaralı qazilərimizə isə Allahdan şəfa diləyirik. Onlar əbədi olaraq qəlbimizdə yaşayacaqlar!..

**Sadiq MİRZƏYEV**

## TÜRKİYƏLİ PSİXOLOQLAR QAZİ VƏ ŞƏHİD AİLƏLƏRİNİN REABİLİTASİYASINA BAŞLAYIB



Fövqəladə Hallar Nazirliyinin dəvəti ilə Türkiyədən gələn peşəkar klinik-psixoloq və psixoterapevtlər Vətən müharibəsi nəticəsində mənəvi-psixoloji problemlər yaşayan vətəndaşların psixoloji reabilitasiyasına başlayıblar.

Yanvarın 22-dən etibarən FHN-in "112" qaynar telefon xətti vasitəsilə mütəxəssislərin qəbuluna yazılan 100-ə yaxın Vətən müharibəsi iştirakçısı, qazi, şəhid ailəsi üzvü, erməni terrorundan zərər görmüş insana psixoterapevtik yardım göstərilib.

Xatırladaq ki, ödənişsiz həyata keçirilən seanslarda iştirak etmək üçün FHN-in "112" qaynar telefon xətti ilə əlaqə saxlamaq lazımdır.

## İSLAM MƏDƏNİYYƏTİ PAYTAXTI - 2017

# MƏŞHƏD



Məşhəd şəhəri İranın şimal-şərqindəki Xorasan vilayətinin mərkəzi və ölkənin ikinci ən böyük şəhəridir. Paytaxt Tehrandan 850 km məsafədə yerləşən şəhərin əhalisi təxminən 3.2 milyon nəfərdir. Adı "şəhid olunan yer" mənasına gələn şəhər şiə müsəlmanlarının müqəddəs məkanı hesab olunur. Onun müqəddəs qəbul olunmasının səbəbi İmam Rzanın qəbrinin burada olmasıdır. 818-ci ildə 53 yaşında dünyasını dəyişən İmam Rza Tus yaxınlığında Sənabad adlanan kənddə, Xəlifə Harun ər-Rəşidin məqbərəsində dəfn edilmişdir. Sonralar ziyarət məqsədi ilə müsəlmanların bura axın etməsi burada şəhərin salınmasına və genişlənməsinə şərait yaratmışdır. Nəticədə Məşhəd İranın ən böyük şəhərlərindən birinə çevrilmişdir. Əvvəllər ziyarətgahdan və az sayda yaşayış evlərindən ibarət olsa da, zəvvarların axını və İpək Yolu üzərində yerləşməsi buranı iri şəhərə çevirmişdir. Tarixi ədəbiyyatda adı ilk dəfə "Məşhəd" kimi X əsr İslam coğrafiyaşünası Məhəmməd Əhməd əl-Məqdisi tərəfindən çəkilmişdir.

Məşhəd və onun ətraf əraziləri tarixin müəyyən dövrlərində hücumlara məruz qalaraq dağıdılmış və yenidən bərpa edilmiş, bəzi dönəmlərdə isə dövlətin mərkəzi şəhəri olmuşdur. Tarixi məlumatlarda ilk dəfə Məşhəd şəhərində abadlıq işlərinin aparılması Samanilərlə bağlıdır. 994-cü ildə Qəznəvi hökmdarı Səbüktəkin İmam Rza ziyarətganı dağıntılara məruz qoymuş, sonralar oğlu Sultan Mahmud Qəznəvi ziyarətgah kompleksində yenidənqurma işləri aparmışdır. Məzarın üstündə ilk günbəz Səlcuqlar tərəfindən XII əsrdə tikilmişdir. Səlcuqlar məqbərə kompleksini də yenidən bərpa etdirmişlər. Xarəzmşahların dövründə isə hərəmin divar və döşəməsi məşhur səncəri kaşıları ilə bəzədilmişdir. Tarixi mənbələrin bəzilərində Məşhədin 1220 və 1296-cı illərdə monqollar tərəfindən yağmalandığı bildirilir.

Səfəvi dövrü İmam Rza ziyarət kompleksinin memarlıq tarixində mühüm yer tutur. Günbəzin və iki minarənin qızıl ilə işlənməsi, qəbir üzərində ilk zirehin hazırlanması, bir neçə tağın və güzbəzin inşası Səfəvilər dövrünə təsadüf edir. Ziyarətgahın günbəzi və bir neçə hissəsi 1525-ci ildə Şah Təhmasib tərəfindən qızıl ilə bəzədilmişdir. Şah Abbasın dövründə də burada yenidənqurma və bəzək işləri aparılmışdır. 1589-cu ildə özbək xanı Əbdülmömin ziyarətgahı və günbəzdə olan qızılları qarət etmişdir. Birinci Şah Abbas Məşhədə səfər edərkən günbəzi yenidən qızılla bəzətdirmişdir. Daha bir Səfəvi şahı - Şah Süleyman da burada təmir işləri aparmışdır.

Məşhəd şəhəri Nadir şahın dönəmində özünün qızıl dövrünü yaşamışdır. O, şəhəri imperiyanın mərkəzi etmişdir. Əfşarlar dövründə ziyarətgahda bir neçə minarə tikilmiş, bəzi yerlər təmir edilərək yenidən qızıl ilə bəzədilmişdir. Əmir Əlişir eyvanının yenidən qızıl ilə bəzədilməsi, onun üstündəki minarə və İsmail Təlayi su evinin su daşı da həmin dövrə aiddir. Qiymətli daş-qaşlarla bəzədilmiş polad zirehi Nadir şah Əfşarın nəvəsi Şahrux Mirzə vəqf etmişdir. Üzük qaşlı zireh hazırda sərdabədədir. Qeyd edək ki, qəbir üzərinə ilk zireh 1550-ci ildə Səfəvilər dövründə qoyulmuşdur. Qacarların dövründə də İmam Rza kompleksində memarlıq işləri davam etmişdir. Bu dövrdə daha çox şüşə işləmələrdən istifadə olunmuşdur. Azadlıq həyətinin binasının inşası və bir neçə yerinin yenidən qızılla bəzədilməsi də həmin dövrə təsadüf edir.

Hazırda hərəmin həndəsi forması təqribən dördbucaqlıdır. Genişlənmədən sonra onun ərazisi 182 min kvadratmetr təşkil edir. Hərəmin iki tərəfdən (cənub və şimal) qızıl qapılar vasitəsilə tağlara yolu var, başqa iki tərəfdən (şimal və qərb) isə iki böyük otaqla başqa tağlara və məzarın baş tərəfindəki məscidə birləşir. Günbəzin xaricdən səthi 42 metr, hündürlüyü qızıl işlənmiş yerdən uc hissəyə qədər 16 metr, yuxarı hissənin hündürlüyü isə 3 metrdir. Qızıl ilə işlənmə yerindən aşağıya qədər hissə 49 metrdir. Ümumilikdə ziyarətgah kompleksi özündə mədrəsələri, kitabxanaları və məscidləri birləşdirir. Ziyarətgahı il ərzində milyonlarla insan ziyarət edir.

Məşhəd və onun ətraf əraziləri həm ziyarət, həm də tarixi memarlıq baxımından zəngindir. Məsələn Gövhərşad məscidi, Pirizad mədrəsəsi, Balasər mədrəsəsi, Şeyx Bəhainin məqbərəsi, Balasər məscidi, Xacə Rəbi, Qonbəde-Səbz (yaşıl günbəz), Nadir şahın məqbərəsi, Məşhəddən 25 km aralıda yerləşən qədim Tus şəhərinin xarabalığı və orada yerləşən Firdovsinin qəbri və s. turistləri cəlb edən yerlərdir.

Məşhədin əzəmətli binalarından biri də Gövhərşad məscididir. 1418-ci ildə Teymuri hökmdarı Şahrux Mirzənin xanımı Gövhərşad bəyimin əmri ilə inşa edilmişdir. Tikintinin memarı Qəvaməddin Şirazidir. Bu tarixi bina müqəddəs hərəmin cənub tərəfində yerləşir, Darül Səyadə və Darül Hifaz tağlarına birləşir. Məscidin günbəz şəkilli tağları və onun xüsusi bəzəyə malik minarələri qabarıq üsulla bəzədilmiş, həmçinin divarın naxış və xətləri, gips üzərində Teymurilər dövrünün ən yaxşı kaşıları bu binaya təkrarolunmaz gözəllik vermişdir. Mehrab mərmər daşından olub, oyma, bəzək və kitabə ilə öz dövrünün memarlığının göstəricisidir. Eyvan mehrabının yanında yerləşən Sahibəzzaman minbəri qədimiliyi baxımından mühümdür. Bu nəfis minbər mismar işlədilmədən qoz və armud ağacından çox gözəl şəkildə ustad Məhəmməd Nəccar Xorasani tərəfindən Fətəli şah Qacar əsrinin məşhur taxta üzərində naxış üslubu ilə düzəldilmişdir. Eyvan üzərindəki hündür günbəz bu binanın əzəmətini daha da artırır. Günbəzin hündürlüyü 41 metr, eni 10 metrdir. Onun xarici səthi minalanmış kərpic və kufi xəttində olan bir kitabə ilə bəzədilmişdir. Bu eyvanın iki tərəfində məscidin döşəməsindən ucaldılan 43 metrlik iki minarə bir neçə kitabəyə malikdir. Gövhərşad məscidi 2800 kvadratmetrlik həyətə malikdir və onun təməli 9400 kvadrat metrdir. Məscid binasının 8 böyük eyvanı və yeddi otağı var. Məscidi inşa etdirən Gövhərşad xanımın adı məscidin şimal eyvanında (Darül Siyadə) sarı rəngli kaşı üzərində süls xətti ilə yazılmışdır.

Məşhəddə görməli yerlərdən biri də Nadir şah kompleksidir. Burada Nadirin hündürlüyü 5 metr, ağırlığı 14 ton, yanında əsgəri olan nəhəng bürünc heykəli və iki muzey var. Muzeylərdən birində İran tarixinin müxtəlif dövrlərinə aid silahlar, digərində isə Nadir şaha məxsus silahlar sərgilənir. Huşəng Seyhun tərəfindən dizayn edilmiş məqbərə 1963-cü ildə tikilmişdir.

Digər görməli yer isə Tus şəhərində fars şairi Firdovsinin şərəfinə ucaldılmış ağ mərmərdən ibarət türbə kompleksidir. 1930-cu illərin əvvəllərində inşa edilmiş, İranın zəngin mədəniyyətini və tarixini nümayiş etdirən türbənin inşasında, əsasən, Əhəmənilər memarlığının elementlərindən istifadə olunmuşdur.

Onu da qeyd etmək lazımdır ki, Məşhəd İran iqtisadiyyatının turizm və ağır metallurgiya mərkəzi, İranın avtomobil istehsal edilən ən böyük şəhərlərindən biridir. İqtisadiyyatının digər hissəsini zərgərlik, quru meyvə, ədviyyat istehsalı tutur. Məşhəd, həmçinin bölgənin əsas dəri məhsulları istehsalçılarındandır.

**Hazırladı:** Tural VƏLİZADƏ

## AZƏRBAYCAN-VATİKANIN ƏLAQƏLƏRİ İLƏ BAĞLI MÜZAKİRƏLƏR APARILIB

Azərbaycanın Fransadakı səfiri Rəhman Mustafayev Müqəddəs Taxt-Tacın xarici işlər üzrə dövlət katibi Pol Riçard Qallager ilə görüşüb.

Görüşdə Azərbaycan-Vatikan arasındakı münasibətlərin yüksək səviyyəsi, ikitərəfli görüşlərin müntəzəmliyi razılıqla qeyd olunub.

Azərbaycan Respublikasının Prezidentinin və Birinci vitse-prezidentin Vatikana səfərləri xoş təəssüratlarla xatırlanıb. Ölkəmizin Vatikanda bərpa işlərinə töhfələri yüksək qiymətləndirilib. Heydər Əliyev Fondunun Vatikanda həyata keçirdiyi layihələrdən söz açılıb.

Səfir Rəhman Mustafayev Müqəddəs Taxt-Tacın xarici işlər üzrə dövlət katibi Pol Riçard Qallagerə 44 günlük Vətən müharibəsindən sonrakı vəziyyət, eləcə də işğaldan azad edilmiş ərazilərimizdə təbiətə qarşı törədilmiş cinayətlər, vandalizm və dağıdılmış mədəni və dini irs barədə ətraflı məlumat verib. Azərbaycanın azad edilmiş torpaqlarda infrastrukturu, nəqliyyat-kommunikasiya xətlərinin bərpasına başladığı qeyd edilib.

Müqəddəs Taxt-Tacın balanslı mövqeyinin, Azərbaycan və Ermənistanı sülh, dialoq və əməkdaşlığa çağırışının yüksək qiymətləndirildiyi qarşı tərəfin diqqətinə çatdırılıb.

Diplomat bildirib ki, ikitərəfli əməkdaşlığın daha da möhkəmləndirilməsi üçün səylərini əsirgəməyəcək. Tərəflər əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparıblar.

R.Mustafayev, həmçinin Qarabağın şəhər və kəndlərində 30 illik işğal müddətində törədilmiş vandalizm aktlarını əks etdirən foto şəkilləri və video materialları təqdim edib.

Görüşdə Fransadakı səfirliyimizin diplomatı Mikayıl Ramazanlı da iştirak edib.



# GÖZƏL SÖZ SƏDƏQƏDİR



İnsanı insan edən xüsusiyyətlər arasında düşünmək, qərar vermək kimi davranışlarla yanaşı, onun danışması, özünü ifadə etməsi, ünsiyyət qurması da olduqca önəmlidir. Yalnız nə etmək istədiyini, nəyi axtardığını, nəyə yönəldiyini qavrayan insan danışarkən sözünə məna və dəyər qatmış olur. O, bir yandan müraciət tərzi, ədası və sözləriylə qarşısındakını incidə, qəlbini qıra bilər, digər tərəfdən isə sözləri ilə qarşısındakına can verər, onun özünü yaxşı hiss etməsinə vəsilə olar, yanında olduğunu və kömək etməyə hazır olduğunu hiss etdirə bilər. Ona görə də əsas olan söz söyləmək deyil, sözü necə söyləməkdir.

Arı ağzında bal, quyruğunda zəhər daşıyar.

Deyirlər, sözün də iki başı var: bir başı odur ki, sözü gözəl danışan insanı söz ucaldar, gözəlləşdirər və hörmətə çatdırar; o biri başı odur ki, sözü ləyaqətdən salıb, pis danışan insanı söz alçaldar və hörmətdən, ləyaqətdən salar. Bu ona görə belədir ki, söz müqəddəsdir. Sözə ehtiyatla yanaşmaq gərəkdir.

Söz var – yazarlar!
Söz var – deyərlər!
Söz var – deməzlər!

Dahi şairimiz Məhəmməd Füzuli sözə belə qiymət vermişdir:

Mən aləm sədəfində insandan qiymətli bir gövhər görmədim. İnsan gövhərində isə sözdən şərəfli gövhər tapmadım.

İslam dini də insanlara şirin, xoş dillə ünsiyyət qurmalarını, kimisə incidəcək sözlərdən çəkinmələrini tövsiyə etmişdir. Çünki İslam insanlar arasında sevgi və hörmət hisslərinin möhkəmlənməsinə, etibar və əmin-amanlığın hakim olmasına böyük önəm verir. Qurani-Kərimdə bu barədə buyurulur: "(Ya Rəsulum!) Bəndələrimə de: "(Danışdıqları zaman "la ilahə illallah; yərhəmukəllah; yəğfiru ləkəllah" kimi) gözəl sözlər söyləsinlər (və ya müşrikləri imana dəvət edərkən onlarla xoş danışsınlar!)" Şeytan onların arasına fitnə-fəsad sala bilər..." (İsra, 53).

Yaradılan hər bir şeyin var olma məqsəd və qayəsi vardır. Eləcə də insanın və onun bədən üzvlərinin öz var olma məqsədi vardır. Hər bir yaradılan öz məqsədinə müvafiq şəkildə istifadə olunduqda həqiqi dəyərini qazanır.

Danışmaq qabiliyyəti də insana verilmiş ən önəmli bacarıq və dəyərlərdən biridir. Bu bacarığı ilə insan ünsiyyət qurur. Çünki bu, insan təbiətinin bir ehtiyacıdır. Cəmiyyət halında yaşayan insan hər gün bu qabiliyyətindən istifadə edərək ətrafında dost və ya düşmən halqası əmələ gətirir.

Sözlərin ən gözəli olan Allah kəlamını ümmətinə təbliğ edən Həzrət Məhəmməd (s) də bir çox hədisində insanlara gözəl söz söyləməyi buyurmuş və tövsiyə etmişdir. Özü də həyatı boyu kobud sözlərdən çəkinmiş, onu təhqir edən insanlar barəsində "Allahım, onlara hidayət ver, çünki onlar həqiqəti bilmirlər" şəklində dua etmişdir. Allah Rəsulunun (s) bu yüksək əxlaqı vaxt keçdikcə düşmənlərinin belə, sevgi və imanla ətrafında toplaşmağına səbəb olmuşdur.

Lazımsız və faydasız sözlərdən çəkinmək, daim haqqı və doğrunu söyləmək mömininin prinsipidir. Əhəmiyyət vermədən söylədiyi bir söz insanı cəhənnəmin ən dərin yerinə həbs edə bilər.

Rəvayətə görə, bir gün səhabələrdən biri Məhəmməd peyğəmbərdən soruşur: "Ey Allahın (s) elçisi, məni cənnətə aparacaq bir əməli mənə öyrədə bilərsən?"

Allah Rəsulu (s) buyurur: "(Cənnətə aparacaq əməl Allah tərəfindən bağışlanmaqdır). Bağışlanmağın səbəbləri isə çoxlu salam vermək və gözəl söz söyləməkdir".



**Zabit Qarayev**

# ŞUŞADA ERMƏNİ KİLSƏSİ OLMAYIB

Şuşada erməni kilsəsi olmayıb. Bunu Trend-ə mədəni dəyərlər üzrə tədqiqatçı ekspert, Beynəlxalq Memarlar Akademiyasının Moskva şöbəsinin professoru, Azərbaycan Memarlar İttifaqının İdarə Heyətinin üzvü Faiq İsmayılov deyib.

Onun sözlərinə görə, Ermənistan mətbuatı mütəmadi olaraq saxta dəlillər gətirərək Şuşa şəhərində "erməni" kilsəsinin azərbaycanlılar tərəfindən "dağıdılacağı" barədə dezinformasiyalar yayır:

"Ermənilər belə bir şayiə yayırlar ki, guya Şuşa şəhərində "Qazançılar" adlandırılan kilsə 1722-ci ildə mövcud olmuş hansısa başqa bir kilsənin bünövrəsi üzərində Naxçıvanın Qazançı kəndindən gələn ermənilər tərəfindən inşa edilmişdir.

O zaman belə bir sual yaranır, əgər kilsə ermənilər tərəfindən tikilirdisə, niyə erməni qriqoryan kilsəsi memarlığı üslubunda tikilmirdi? Axı, əslində ermənilərin Cənubi Qafqaza gəlişi I Pyotrun 1724-cü ilin noyabrın 10-da rəsmiləşdirilən fərmanından sonra başlanmışdı. 1828-ci il Türkmənçay sülh müqaviləsinin nəticəsi olaraq 40000 erməni, 1829-cu ilin Ədirnə sülhünün nəticələrinə görə Osmanlı İmperiyası ərazilərində yaşayan 90000 erməni Azərbaycanın Naxçıvan, İrəvan və Qarabağ xanlıqları ərazilərində məskunlaşdırıldılar.



Bu, onu deməyə əsas verir ki, o dövrə qədər Şuşada erməni kilsəsinin mövcudluğu mümkün deyildi. Bu və ya digər tarixi həqiqətlər ermənilərin yalan danışdıqlarını sübut edir".

F.İsmayılov qeyd edib ki, Şuşa şəhərində keçən əsrin sonlarına qədər erməni kilsəsi mövcud olmayıb.

Şuşada rus pravoslav kilsəsinin yaranma tarixindən danışan mütəxəssis əlavə edib ki, 1805-ci ildə Qarabağ xanlığını devirməyə nail olan çar hökuməti digər bölgələrimizlə bərabər öz mənzil qərargahını Şuşa şəhərində də yaratdı: "O dövrdə Şuşa şəhərində xristian kilsəsi yox idi. Rus əsgərlərinin ibadəti üçün isə kilsənin yaradılmasına ehtiyac var idi. Müharibələr nəticəsində iqtisadi cəhətdən zəif olan Rusiyanın şəhərdə quruculuq işləri aparmağa imkanı yox idi. Odur ki, ordu rəhbərliyi xanlığın divanxanasının qülləsindən zəng asdıraraq burada rus əsgərlərinin ibadəti üçün şərait yaratdı. 1806-cı ildə ruslar tərəfindən divanxananın yanında zəng qülləsi tikilmişdir. Lakin zaman keçdikcə Qarabağ xanlığının divanxanası rus ordusu komandanlığı tərəfindən, təmir edilərək kilsə stilinə uyğunlaşdırılırdı və sonrakı dövrlərdə daha iki kilsə inşa edildi. Zaman keçdikcə kilsələrin də tərəqqiyə uyğun xarici görkəmi dəyişdirilirdi".

F.İsmayılov əlavə edib ki, Şuşa şəhərindəki Qazançı adlandırılan rus pravoslav kilsəsinin 1887-ci ildə belə inşa edildiyi barədə arxiv sənədləri mövcuddur. Sonrakı illərdə daha bir dəyişikliyə məruz qalan rus kilsəsi mahiyyət etibarı ilə rus pravoslav kilsə memarlığının bütün qaydalarını özündə qoruyub saxlamışdır. Belə ki, kilsənin mərkəzi hissəsindəki qübbə sökülərək bir neçə metr hündürləşdirildi. Formalardakı fərq müqayisə edilərkən bu memarlıq üslubunun erməni qriqoryan kilsəsinə məxsus olmadığı aydın şəkildə görünür.

Tədqiqatçı ekspertin bildirdiyinə görə, Qarabağda erməni kilsəsinin fəaliyyəti Erməni Qriqorian Kilsəsinin rəhbəri II Vazgen tərəfindən Parqev Martirosyanın 1989-cu ildə Dağlıq Qarabağ bölgəsinə arxiyepiskop təyin edilməsindən sonra başlamışdır. Bufakt göstərir ki, Şuşada erməni Qriqoryan kilsəsi olmayıb.

"Dağlıq Qarabağ bölgəsində yerləşən bütün kilsələr 1930-cu ildə SSRİ hökumət rəhbərlərinin göstərişi ilə qapadılıb və bəzilərindən yem anbarı kimi istifadə olunub. SSRİ Hökumətinin bu qərarından sonra Şuşadakı rus kilsələri də baxımsız və istifadəsiz qalıb. Kilsələrin yenidən fəaliyyəti Mixail Qorbaçovun rəhbərliyi dövründə mümkün olub. 1989-cu ildə Qarabağda erməni yeparxiyasının yaradılması və Qarabağda yaşayan ermənilərin artan millətçilik tələbləri fonunda kilsələrin erməniləşdirilməsinə və aktiv olmayan kilsələrin belə işlək vəziyyətə gətirilməsi siyasəti aparıldı, bu məqsəd üçün xarici ölkələrdə yaşayan ermənilərin maddi imkanlarından istifadə olunmağa başladı. Bu da nəticə etibarı ilə Azərbaycanın 20% torpaqlarının Ermənistan silahlı qüvvələrinin işğalı altına düşməsinə səbəb oldu".

F.İsmayılov qeyd edib ki, Ermənistan hökuməti işğal etdiyi Azərbaycan ərazilərindəki xristian dövrü memarlıq abidələrini mənimsəməklə, bu torpaqları Ermənistana birləşdirib "Böyük Ermənistan" dövləti yaratmaq üçün çalışırdılar. Məhz bu səbəbdən də ermənilər bütün işğal altında saxladıqları ərazilərdəki kilsə və monastırların xarici görkəmini dəyişdirib erməni Qriqoryan kilsələrinə çevirirdilər. Ermənilər Şuşadakı Qazançı rus kilsəsinin 1995-2000-ci ildə memarlıq quruluşunu dəyişdirilərək erməni qriqoryan kilsəsinə çeviriblər.

***Trend.az***

# XRİSTİAN İRSİMİZİ TANIYAQ

Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi "Xristian irsimizi tanıyaq" layihəsi çərçivəsində Müqəddəs Jen-Mironosits pravoslav kilsəsi barədə hazırlanan videoçarxı təqdim edib.



Kilsə 1909-cu ildə memar M.F.Verjbitskinin layihəsi əsasında rus stilində, məşhur Azərbaycan milyonçusu və xeyriyyəçisi Hacı Zeynalabdin Tağıyevin şəxsi maddi yardımı və ianələr hesabına inşa edilib.

Moskvanın və bütün Rusiyanın Patriarxı II Aleksi 2001-ci il mayın 27-də Azərbaycana səfəri zamanı bu məbədi müqəddəs elan edib və ona baş kafedral kilsə statusu verib. Açılış mərasimində Ulu Öndər Heydər Əliyev, hökumət üzvləri, səfirliklərin nümayəndələri və dini icmaların rəhbərləri iştirak ediblər.

***

Layihə çərçivəsində, həmçinin "Müqəddəs alman Lüteran kilsəsi" barədə hazırlanan videoçarx təqdim olunub.

Videoçarxda xilaskar kilsəsi kimi tanınan Bakıdakı alman lüteran kilsəsinin 1896-1899-cu illərdə alman memar Adolf Eyxlerin layihəsi əsasında neoqotika üslubunda inşa edildiyi qeyd olunub.



Kilsənin 1896-cı il martın 21-də reallaşan təntənəli təməlqoyma mərasimində Bakı qubernatoru Pavel Lileyev və bələdiyyə başçısı İretskiy də iştirak edib. Kilsə Nobel qardaşları da daxil olmaqla, dindarların ianələri əsasında inşa edilib.

2010-cu il martın 15-də kamera və orqan musiqisi zalı binasının tarixi-memarlıq abidəsi və mədəniyyət ocağı kimi əhəmiyyətini nəzərə alan Prezident İlham Əliyev binanın bərpası haqqında Sərəncam imzalayıb. Bir il ərzində davam edən restavrasiya işlərindən sonra 2010-cu il dekabrın 30-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva kilsə binasının açılışında iştirak ediblər. Azərbaycan mütəxəssisləri tərəfindən həyata keçirilmiş əsaslı təmir və bərpa işləri binanın özünəməxsus orijinal üslubunu, qədim tarixi memarlığını qorumaqla həyata keçirilib.

***

Növbəti videoçarx isə "Müqəddəs Məryəm Ana Katolik Kilsəsi"nə həsr olunub. Videoçarxda kilsənin 1912-ci ildə Bakıda neft maqnatları – Rılskilər ailəsi tərəfindən "Müqəddəs Bakirə Məryəmin Məsum Hamiləliyi" kostyolu - polyak katolik kilsəsi kimi (memarı İ.K.Ploşko) inşa edildiyi diqqətə çatdırılıb.

Bolşeviklər tərəfindən uçurulan Müqəddəs Məryəm Ana Kilsəsinin xatirəsinə həsr edilən hazırkı kilsənin tikintisi 2007-ci ilin fevralında yekunlaşıb. 2008-ci il martın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Birinci vitse-prezident Mehriban xanım Əliyeva və



Vatikanın dövlət katibi kardinal Tarçizio Bertone kilsənin rəsmi açılış mərasimində iştirak ediblər.

***

"Xristian irsimizi tanıyaq" layihəsi çərçivəsində təqdim olunan daha bir videoçarx isə "Müqəddəs Georgi" gürcü-pravoslav kilsəsi haqqındadır.

Müqəddəs Georgi kilsəsi Qax rayonunun Qaxingiloy kəndi ərazisində yerləşir. Bu kilsə 1888-ci ildə xristian din əzabkeşi müqəddəs Georginin şərəfinə tikilib.



Kilsə Mədəniyyət Nazirliyi tərəfindən tarixi abidə kimi qorunur.

2006-cı ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev kilsəni ziyarət edib.

# ICESCO-NUN 2021-Cİ İLDƏ HƏYATA KEÇİRƏCƏYİ LAYİHƏLƏR AÇIQLANIB



İslam Dünyası Elm, Təhsil və Mədəniyyət Təşkilatı (ICESCO) 2021-ci ildə təşkilatın həyata keçirəcəyi yeni layihələri açıqlayıb.

İƏT Milli Xəbər Agentlikləri Birliyi (UNA) ilə keçirilən birgə virtual Media Forumunda çıxış edən ICESCO-nun Baş direktoru Salim əl-Malik yeni ilin ilk günlərində Məhəmməd peyğəmbərə (s) həsr olunmuş beynəlxalq konfransa hazırlıq görüldüyü barədə məlumat verib. O qeyd edib ki, İslam və Qərb ölkələrindən ilahiyyatçı alimlərin iştirak edəcəyi bu geniş tədbir Müsəlman Dünyası Liqası və İlahiyyatçıların Məhəmmədiyə Liqası ilə birlikdə keçiriləcək. Bundan başqa, ICESCO-nun təşkilatçılığı ilə İslam dünyasında medianın gələcəyi mövzusunda da konfransın keçirilməsi nəzərdə tutulur.

Baş direktor qeyd edib ki, 2021-ci ilin İslam dünyasında "Qadın ili" elan edilməsi münasibətilə İƏT-ə üzv ölkələrin iştirak edəcəyi geniş tədbirin təşkili də bu layihələr arasındadır. Belə ki, ilboyu keçiriləcək tədbirdə qadın hüquqları və cəmiyyətin sosial-iqtisadi həyatında zərif cinsin nümayəndələrinə dəstəyin artırılması məsələləri müzakirə ediləcək.

ICESCO-nun rəhbəri təşkilatın 2020-ci ildə gördüyü işlər barədə də ətraflı məlumat verib.

# "NATİONAL GEOGRAPHİC" "İNSTAGRAM" SƏHİFƏSİNDƏ AĞDAM ŞƏHƏRİNDƏ ERMƏNİLƏRİN TÖRƏTDİKLƏRİ DAĞINTILARI ƏKS ETDİRƏN FOTOLAR PAYLAŞIB

"National Geographic" özünün "Instagram" səhifəsində Azərbaycanın işğaldan azad edilmiş Ağdam şəhərində ermənilərin törətdikləri dağıntıları əks etdirən fotolar paylaşıb.

"National Geographic"-in paylaşımında bir vaxtlar 40 min əhalinin yaşadığı, bu yaxınlarda azad edilmiş Ağdam şəhərinin təxminən 30 il Ermənistanın işğalı altında qalması nəticəsində dağıntılar içində olduğu bildirilir. Qeyd edilir ki, 1993-cü ildə Ermənistan-Azərbaycan münaqişəsi zamanı Ağdam işğal olunduqdan sonra şəhərdə məsciddən başqa bütün tikililər dağıdılıb. Uzun sürən münaqişə bir milyondan çox insanın köçkün düşməsinə səbəb olub.

Paylaşımda diqqətə çatdırılır ki, ötən ilin sentyabr ayında başlayan hərbi əməliyyatlar 44 gün davam etdi və Rusiyanın vasitəçiliyi ilə əldə olunan sülh razılaşması ilə başa çatdı. Azərbaycan 1990-cı illərdə itirdiyi ərazilərin böyük hissəsini geri qaytardı.



# QISA-QISA



*Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarı ilə dünyada yayılmış koronavirus (COVID-19) pandemiyasının qarşısının alınması məqsədilə ötən ilin mart ayının 24-dən etibarən Azərbaycanda xüsusi karantin rejimi elan edilmişdir. Bununla əlaqədar ölkə üzrə tətbiq olunan məhdudiyyət və tövsiyələrə əsasən, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində də (DQİDK) vətəndaşların qəbulu martın 17-dən etibarən dayandırılmış, ancaq DQİDK-nın "qaynar xətt"inə, "www.scwra.gov.az" rəsmi saytının "Jivochat" onlayn müraciət proqramına, rəsmi elektron poçt ünvanına və sosial şəbəkələrdəki rəsmi səhifələrinə daxil olan yüzlərlə müraciət cavablandırılmış, vətəndaşların qısa zamanda müvafiq məsələlərlə bağlı məlumat və cavab almaları operativ şəkildə təmin edilmişdir. Bununla yanaşı, Dövlət Komitəsi pandemiya dövründə də ölkə ərazisində dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsi, din adı altında milli və dövlət maraqlarımıza zidd ideoloji təlimlərin yayılmasının qarşısının alınması, o cümlədən hamı üçün çətin keçən bu günlərdə cəmiyyətimizin maddi və mənəvi cəhətdən səfərbər olunması, insanların mənəvi baxımdan sıx birləşməsi istiqamətində maarifləndirmə fəaliyyətini davam etdirmişdir. Bu məqsədlə Dövlət Komitəsinin bölgə şöbələri tərəfindən dini icma sədrləri və din xadimlərinin iştirakı ilə videokonfrans formatında maarifləndirmə tədbirləri keçirilmişdir. Bu qəbildən olan maarifləndirmə tədbirləri cari ay ərzində:*

**7 yanvar** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə dini icmaların 2020-ci il üçün yekun hesabatına və cari il üçün görüləcək işlərə;

**12 yanvar** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə dini icmaların 2020-ci il üçün yekun hesabatına və cari il üçün görüləcək işlərə;

**13 yanvar** – DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi və Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) birgə təşkilatçılığı ilə 2020-ci ilin yekunlarına və qarşıda duran vəzifələrə;

**14 yanvar** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsininin təşkilatçılığı ilə "Şəhidlik vətənpərvərliyin ən ali məqamıdır" mövzusuna; DQİDK-nın Şəki bölgəsi üzrə şöbəsi, Oğuz Rayon Gənclər İdman idarəsi, Şəki Regional Mədəniyyət idarəsi, Oğuz Rayon Mərkəzi Kitabxanası və Oğuz Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Oğuz rayonunda "Milli və dini həmrəyliyin Vətən müharibəsində rolu" mövzusuna;



**21 yanvar** – DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Balakən Rayon İcra Hakimiyyəti (RİH) və QMİ-nin birgə təşkilatçılığı ilə 2020-ci ilin yekunlarına və qarşıda duran vəzifələrə;

**22 yanvar** – DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi və Lənkəran şəhəri Həzi Aslanovun ev muzeyinin birgə təşkilatçılığı ilə iki dəfə Sovet İttifaqı Qəhrəmanı, general-mayor Həzi Aslanovun anadan olmasının 111 illiyinə həsr edilmiş "Həzi Aslanov 111: Vətənin qəhrəman oğlu" mövzusuna;

**27 yanvar** – DQİDK-nın İmişli bölgəsi üzrə şöbəsi, Saatlı RİH və "Saatlı Gənclər Evi" sosial xidmət müəssisəsinin birgə təşkilatçılığı ilə "Vətən mühabirəsində qazanılan qələbə tariximizin parlaq səhifəsidir" mövzusuna; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Zaqatala RİH və QMİ-nin Zaqatala rayon qazılığının birgə təşkilatçılığı ilə 2020-ci ilin yekunları və 2021-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuşdur.

DQİDK-nın bölgə şöbələrinin və digər qurumların əməkdaşlarının, rayonların dini icma sədrlərinin və din xadimlərinin qatıldığı videokonfranslarda əvvəlcə Vətən müharibəsində qəhrəmancasına canından keçən şəhidlərimiz bir dəqiqəlik sükutla yad edilmişdir.

Çıxışlar zamanı 2020-ci ilin xalqımızın tarixində Qələbə ili kimi qaldığı, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan ordusunun düşmən üzərində qələbə qazanaraq tarixi torpaqlarımızın geri alındığı iftixarla qeyd edilmişdir. Bildirilmişdir ki, torpaqlarımızın azad edilməsi, vətənimizin müdafiəsi uğrunda şəhidlik zirvəsinə ucalanların adı həmişə böyük şərəf və qürur hissi ilə anılacaq, xatirələri əbədi yaşadılacaqdır. Həmçinin vurğulanmışdır ki, bu müharibədə ölkəmizdə yaşayan müxtəlif xalqlara və dinlərə mənsub azərbaycanlılar yüksək həmrəylik və birlik nümayiş etdirmişlər.

Çıxışlarda koronavirus pandemiyası ilə bağlı Azərbaycan Respublikası Nazirlər Kabineti yanında fəaliyyət göstərən Operativ Qərargahın qaydalarına əməl edilməsinin vacibliyi də vurğulanmış, 2021-ci ildə dini icmalar qarşısında duran vəzifələr barəsində fikir mübadiləsi aparılmış, din xadimləri, dini icma sədrləri ilə qarşılıqlı əməkdaşlığın daha da genişləndirilməsinin vacibliyi qeyd edilmiş, iştirakçıları maraqlandıran suallar cavablandırılmışdır.



# BÖLGƏLƏRDƏ 20 YANVAR FACİƏSİNƏ HƏSR OLUNAN ANIM TƏDBİRLƏRİ KEÇİRİLİB

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) bölgə şöbələri 20 Yanvar -Ümumxalq Hüzn Gününün 31-ci ildönümü ilə əlaqədar onlayn formatda anım tədbirləri keçiriblər. Bu qəbildən olan tədbirlər:*

**15 yanvar** – DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, İnsan Hüquqları üzrə Müvəkkilin Quba Regional Mərkəzi və Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Quba bölgəsi üzrə qazılığının birgə təşkilatçılığı ilə "Şəhidlər, qanınız yerdə qalmadı!" mövzusunda;



**18 yanvar** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin təşkilatçılığı ilə "20 Yanvar qan yaddaşımızdır" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Zaqatala, Qax və Balakən rayonlarının icra hakimiyyətlərinin və QMİ-nin Zaqatala, Qax və Balakən rayon qazılıqlarının birgə təşkilatçılığı ilə "Azadlığa gedən yol!" mövzusunda regional konfrans;

**19 yanvar** – DQİDK-nın Şirvan bölgəsi üzrə şöbəsinin təşkilatçılığı və Salyan, Neftçala, Biləsuvar rayonlarında fəaliyyət göstərən dini icma sədrləri və din xadimlərinin iştirakı ilə; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi, Göyçay şəhər Heydər Əliyev Mərkəzi və Gənclərin İnkişaf və Karyera Mərkəzinin Göyçay nümayəndəliyinin birgə təşkilatçılığı ilə "20 Yanvar qan yaddaşımızdır" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi və Zərdab rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə "20 Yanvar faciəsi qəhrəmanlıq tariximizdir" mövzusunda;

**20 yanvar** – DQİDK-nın Şamaxı bölgəsi üzrə şöbəsi, Şamaxı Rayon İcra Hakimiyyəti, Qobustan Rayon İcra Hakimiyyəti və QMİ-nin Şamaxı bölgəsi üzrə qazılığının birgə təşkilatçılığı ilə "Şəhidlik məqamı və 20 Yanvar şəhidləri" mövzusunda baş tutub.

Dövlət Komitəsinin və yerli dövlət qurumlarının əməkdaşlarının, təhsil, mədəniyyət işçiləri, QMİ-nin bölgələrdə fəaliyyət göstərən səlahiyyətli nümayəndələri, din xadimləri, dindarlar və gənclərin qatıldığı videokonfranslar zamanı əvvəlcə Azərbaycanın azadlığı, müstəqilliyi və suverenliyi uğrunda şəhid olmuş həmvətənlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Çıxışlarda 20 Yanvar hadisələri zamanı xalqımızın başına gətirilən müsibətlərdən və Azərbaycan xalqının azadlıq mübarizəsindən danışılıb. Qeyd olunub ki, 20 Yanvar faciəsinə, xalqımıza qarşı törədilən bu qanlı və qəddar aksiyaya məhz Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə Azərbaycana hakimiyyətə qayıdışından sonra siyasi-hüquqi qiymət verilib. Diqqətə çatdırılıb ki, azadlığa gedən yolda 20 Yanvar şəhidləri öz həyatları hesabına, şəxsi cəsarəti, igidliyi və qəhrəmanlığı ilə xalqımızın müstəqillik carçısına çevriliblər.

Yanvarın 20-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Quba bölgəsi üzrə şöbəsinin və Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Quba bölgəsi üzrə qazılığının birgə təşkilatçılığı ilə 20 Yanvar - Ümumxalq Hüzn Günü ilə əlaqədar Quba şəhər Şəhidlər Xiyabanına ziyarət təşkil olunub. Ziyarətdə Dövlət Komitəsinin bölgə şöbəsinin əməkdaşları, QMİ-nin bölgə qazılığının nümayəndələri, rayon dindarları, şəhid ailələrinin üzvləri və müharibə qaziləri iştirak ediblər.



Əvvəlcə Qurani-Kərimdən ayələr oxunub, dualar edilib. "Şəhidlər xiyabanı" ziyarət olunduqdan sonra çıxışlar edilib. Çıxış edənlər 20 yanvar hadisələrinin Azərbaycan xalqının oyanışında, müstəqilliyin bərpa olunmasında və qorunub saxlanılmasında əhəmiyyəti rol oynadığını bildiriblər.

# "DİPLOMAT MAGAZİNE" JURNALI ÖLKƏMİZ BARƏDƏ MƏQALƏ DƏRC EDİB

Niderlandın "Diplomat Magazine" jurnalı "Azərbaycanın xristian dünyasına verdiyi töhfə" adlı məqalə dərc edib. Məqalədə dövlətimizin yürütdüyü multikulturalizm siyasətindən, ölkədəki tolerantlıq mühitindən və birgəyaşayış ənənələrindən bəhs olunur. Eyni zamanda dövlətin ölkə ərazisində və onun hüdudlarından kənarda xristian dininə məxsus abidələrin təmiri və tikintisinə göstərdiyi həssas münasibətdən danışılır.

Məqalənin Azərbaycan dilinə tərcümə olunmuş variantını təqdim edirik:

**Azərbaycanın xristian dünyasına verdiyi töhfə**

*Qədim zamanlardan "Odlar Yurdu" adlandırılan Azərbaycan Cənubi Qafqazın ən böyük ölkəsidir və Şərq dünyasını Avropa ilə birləşdirən tarixi "İpək Yolu" üzərində yerləşir. Paytaxtı Bakı şəhəri olan bu ölkə Gürcüstan, Rusiya, İran, Türkiyə və Ermənistanla qonşudur, həmçinin Xəzər dənizi vasitəsilə Qazaxıstan və Türkmənistanla həmsərhəddir. Buna görə də Azərbaycan Respublikası və Azərbaycan xalqı tolerantlığı, çoxkonfessiyalı olması və multikultural xarakteri ilə tanınır.*

*Əhalisinin əksəriyyətini müsəlmanlar təşkil edən və dünyəvi ölkə hesab olunan Azərbaycan, eyni zamanda 300 min xristianın, eləcə də rus, gürcü pravoslavları, alban-udi, slavyan molokan, Roma katolik, alman lüteran, vəftizçi, pentikostal, presviterian, adventist, yevangelist kilsələrinin və s. bu kimi müxtəlif məzhəblərdən olan bir çox xristian icmalarının vətənidir.*

*Azərbaycan həm ölkə daxilində, həm də dünya miqyasında xristian dini məkanlarının qorunmasına fəal töhfə verir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın prezidenti olduğu Heydər Əliyev Fondu İtaliya, Fransa, Rusiya və dünyanın digər ölkələrində bu cür nəcib layihələrin yerinə yetirilməsində əsas icraçı qurumlardan biridir.*

*Bu yaxınlarda - 2020-ci ildə Azərbaycan Vatikandakı Müqəddəs Pyotr Bazilikasındakı "Roma Papası I Leon ilə Hun imperatoru Atillanın görüşü" barelyefini bərpa etdirib. Bu məbəd İntibah dövrü italyan memarlığının ən məşhur nümunələrindən biri hesab olunur. Müqəddəs Pyotr Bazilikası məşhur ziyarət və mərasim yeri hesab olunur. Əslində, Roma Papası həmişə il ərzində Bazilikada və ya onun qarşısındakı meydanda çoxsaylı dini mərasimlər keçirir.*

*Son on il ərzində İtaliyada və Vatikanda bir neçə katakomba da Azərbaycan tərəfindən bərpa edilib ki, bunların arasında Vatikandakı Müqəddəs Sebastian katakombaları xüsusi diqqətə layiqdir. Xristian dünyası üçün əhəmiyyət kəsb edən 8 mindən çox türbəni əhatə edən bu katakombalar 1578-ci ildə kəşf edilib və buradakı bəzi abidələr III əsrə aiddir. Xristianlığa aid müqəddəs ziyarətgahların bərpası müasir insanlara Xristianlığın tarixinə və yüksəlişinə şahid olmaq imkanı yaradır.*




*Saints Marsellino və Pietronun katakombaları da Azərbaycanın bərpa etdiyi katakombalar arasında yer alır. Roma şəhərinin ətrafında yerləşən təxminən 60 katakombadan yalnız bu katakombalar xristian dünyası üçün ən əhəmiyyətli abidələrdən hesab olunur və məhz bu səbəbdən həmin layihənin Azərbaycan tərəfindən maliyyələşdirilməsi Müqəddəs Taxt-Tac tərəfindən yüksək qiymətləndirilib.*

*Onu da qeyd edək ki, Azərbaycan dövləti həmçinin Fransadakı xristian məbədlərinin bərpasına da diqqət ayırır. Buna misal olaraq, Fransanın Orn departamentinin Santiyi, Fresnay-o-Sovaj, San-İler la Jerar, Tanvil, Kurjust, Revoyon və Mal yaşayış qəsəbələrində X-XII əsrlərə aid 7 kilsənin bərpasını vurğulaya bilərik. O cümlədən, Azərbaycan XIV əsrə aid Strasburq Kafedral Kilsəsinə, Bakirə Məryəm və İsa Məsihin həyatlarını əks etdirən kilsənin beş vitrajlı pəncərəsinin bərpası üçün lazımi maliyyə yardımı ayırıb.*

*Azərbaycan hökuməti həm katolik, həm də pravoslav dini abidələrinin qorunması üçün də səylərini əsirgəməyib. Məhz bu səbəbdən Rusiyanın Həştərxan şəhərindəki Müqəddəs Vladimir Kilsəsinin qarşısındakı meydanda Azərbaycan tərəfindən Şahzadə Vladimirə abidə qoyulub. Bu abidə Rusiyada Xristianlığın 1025 illiyi və Həştərxan şəhərinin təməlinin qoyulmasının 455 illiyi münasibətilə ucaldılıb.*

*Azərbaycan dövləti üçün İslam və Xristian dünyası arasında körpü rolunu oynamaq olduqca vacibdir. Azərbaycan Fransa, Küveyt, Oman və Mərakeş ilə birlikdə Parisin Luvr Muzeyində İslam incəsənətinə həsr olunmuş yeni salonların yaradılmasının maliyyələşdirilməsini təmin edib. Muzeydəki İslam Sənəti bölməsi memarlıq, rəsm və digər mədəni yaradıcılıq nümunələrini təqdim edir, burada şüşədən, keramikadan və metaldan hazırlanmış müxtəlif əşyalar, xalçalar, geyimlər və miniatürlər, mindən çox natamam və zədələnmiş yaradıcılıq işləri daxil olmaqla 5 mindən çox sənət əsəri nümunəsi nümayiş olunur.*

*Bu layihələr Azərbaycanın fərqli dinlərə məxsus abidələrə və ziyarətgahlara verdiyi töhfəni bir daha nümayiş etdirir. Bu layihəni həyata keçirməklə Azərbaycan Xristianlıq sənətinə və mənəvi xəzinələrinə hörmət göstərib və təsadüfi deyildir ki, Roma Papası Fransisk 2016-cı ildə Azərbaycana səfəri zamanı Azərbaycandakı tolerantlığı və multikulturalizmi yüksək qiymətləndirib. Qeyd edək ki, 2020-ci ildə mədəniyyətin, o cümlədən Müqəddəs Taxt-Tac və onun təsisatları ilə qarşılıqlı əlaqələrin inkişafına verdiyi töhfələrə görə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya Papa Cəngavər Ordeninin ən ali dərəcəsi - IX Piy Ordeninin Böyük Xaçı təqdim edilib".*

**Tərcümə etdi:** Elgün HACIYEV,
*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin əməkdaşı*

# İŞĞALDAN AZAD EDİLƏN ƏRAZİLƏRDƏ 87 YENİ ABİDƏ AŞKARLANIB



"İşğaldan azad edilən ərazilərdə monitorinqlər aparmaqla oradakı abidələrimizin durumu, mədəniyyət müəssisələrinin hazırkı vəziyyətini təftiş edirik".

Bunu Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəsi vəzifəsini icra edən Azad Cəfərli deyib.

O bildirib ki, bu günə kimi 303 tarix və mədəniyyət abidəsi monitorinq edilib: "Onların əksəriyyəti tamamilə dağıdılıb. Bundan əlavə tarixilik və memarlıq xüsusiyyəti olan 87 yeni abidə aşkarlamışıq. 461 sayda mədəniyyət müssisəsi, muzey, mədəniyyət evləri, kitabxanalar təftiş olunub. Onlardan 212-si kitabxana, 199-u mədəniyyət evi olmaqla tamamilə dağıdılıb. Bu hələ bütün qeydə alınmış abidələr deyil və proses davam edir. Bu günə qədər 1 000-ə yaxın abidənin qeydiyyatı aparılıb. Onların tam əksəriyyətinin tamamilə dağıdılması Ermənistanın vandallıq siyasətindən xəbər verir. Onlar bizim mədəni irsimizi ərazidən tamamilə silmək, adibədələrin bizə məxsus olması ilə bağlı bütün faktları aradan göstürmək istəyiblər".

# ICESCO BEYNƏLXALQ TƏHSİL GÜNÜ MÜNASİBƏTİLƏ MÜRACİƏT YAYIB

İslam Dünyası Elm, Mədəniyyət və Təhsil Təşkilatının (ICESCO) Beynəlxalq Təhsil Günü münasibətilə üzv ölkələrə müraciəti yayılıb.

Müraciətdə 2018-ci il dekabrın 3-də BMT Baş Assambleyası tərəfindən təsis edilmiş bu əlamətdar gündə insanların təhsil hüququnun təmin edilməsinin zəruriliyi cəmiyyət və hökumətlərə bir daha çatdırılır.

Müraciətdə qeyd edilir ki, BMT-nin 2030-cu ilədək İnkişaf Proqramının dördüncü əsas hədəfi olan təhsilin inkişafı İslam ölkələrində həmişəkindən daha aktualdır. Bu vəzifələrin yerinə yetirilməsi məqsədilə ICESCO 2020-2030-cu illər üçün hazırladığı strateji planı həyata keçirir. Planda İslam dünyasında innovativ və ən müasir tələblərə cavab verən təhsil sisteminin tətbiqi nəzərdə tutulur.

Eyni zamanda, bildirilir ki, strateji planın uğurla həyata keçirilməsi istiqamətində üzv ölkələrin Təhsil nazirlikləri ilə mütəmadi məsləhətləşmələr aparılır, birgə tədbirlər keçirilir. "ICESCO məmnunluqla qeyd edir ki, bir sıra ölkələrdə, o cümlədən İslam dövlətlərində nümunəvi təhsil modellərinin tətbiqi gələcəyə nikbin baxmağa əsas verir. Təşkilat inklüziv və bərabər əsaslarda təhsilin daha geniş yayılmasını dəstəkləyir. Eyni zamanda, bəzi ölkələrdə hökumətlərin pandemiya, təbii fəlakətlər, silahlı münaqişələr və qeyri-sabitlik səbəbindən təhsil üzrə öz vəzifələrini yerinə yetirə bilmədiyi faktları da mövcuddur", - deyə müraciətdə vurğulanır.

Müraciətdə, həmçinin ICESCO-nun COVID-19 pandemiyası şəraitində həyata keçirdiyi tədbirlər sadalanır. Xüsusən qızların və qadınların təhsilə daha fəal cəlb olunması onların cəmiyyətdə rolunun artırılması məqsədilə təşkilat 2021-ci ili "Qadın İli" elan edib. Bundan başqa, dördüncü sənaye inqilabı dövründə yüksəkixtisaslı kadrların hazırlanması məqsədilə təhsildə süni intellektin tətbiqinə də xüsusi diqqət yetirilir.

# İNCİL ARXEOLOGİYASINA DAİR ƏSAS KƏŞFLƏRİN YEKUN NƏTİCƏLƏRİ AÇIQLANIB

COVID-19 səbəbilə 2020-ci ildə bütün dünyada tətbiq olunan məhdudiyyətlər arxeoloji tədqiqatlardan da yan keçmədi. İsrail ərazisində planlaşdırılmış arxeoloji qazıntıların, demək olar ki, hamısı təxirə salındı. Bununla belə, istər burada, istərsə də qonşu ölkələrdə məhdudlaşdırılmış qaydada aparılan bəzi arxeoloji qazıntılar, hazır qazıntılarda davam edən tədqiqatlar bir neçə böyük kəşflərə səbəb oldu. Məqalədə 2020-ci il üzrə Bibliya arxeologiyasına dair 10 əsas kəşf verilmişdir.

**10-cu yer.** Müqəddəs heyvanların kürəyində dayanmış Assuriya kralı və yeddi Assur tanrısının daşa oyulmuş 15 futluq təsvirləri. Arxeoloqların kəşf etdikləri bu bədii əsər İraqın şimalında bir kanal boyunca qayaya həkk olunmuşdur. Təsvir olunan hökmdarın e.ə. 722-705-ci illərdə hökm sürən və İsrailin şimal krallığını fəth edən II Sarqon olduğu ehtimal edilir. Relyefin tapıldığı kanal II Sarqonun köləliyi altında olan israillilər tərəfindən qazılmış ola bilər, ancaq bu hələ ki, fərziyyədir.

**9-cu yer.** İsrailin şimalında - Baniasdakı qazıntılar zamanı aşkarlanan, əvvəlki məbədin yerində inşa edilmiş IV əsrə aid kilsənin qalıqları. Banias yunan mifologiyasında meşə tanrısı və Hermesin oğlu olan Pana sitayişin mərkəzi idi, buradakı məbəd isə çox güman ki, ibadətgah rolunu oynamışdır. Bu şəhər sonradan İncildəki Qeysəriyyə Filipi kimi qəbul edilmişdir, məbəd isə Peterin İsa Məsihlə danışdığı yerdən bir qədər aralıda yerləşmişdir. Xarabalıqdakı daşlardan biri Xristianlığın Roma İmperiyasının rəsmi dini olmasından bir müddət sonra kilsəni ziyarət edən zəvvarlar tərəfindən xaç oyması ilə işarələnmişdir.

Qazıntı işləri Qolan təpələrində də (Suriyanın cənub-qərb, İsrailin şimali-şərq ərazilərində yerləşən təpəlik ərazilər) davam etdirilmişdir. Arxeoloqlar burada istehkam rolu oynayan tikili aşkarlamışlar. Tikilinin təxminən e.ə. 1000-ci ilə, Davudun hökmranlığı dövrünə, ya da daha əvvəlki dövrlərə aid ola biləcəyi ehtimal edilir. Qalanın içindəki böyük bazalt daşının üzərində əlləri uzanmış iki buynuzlu fiqur həkk olunub. Arxeoloqlar hesab edirlər ki, bu tikili kral Davudla müttəfiq olmuş Geşur krallığının forpostu olmuşdur. Davudun xanımı, Absalomun anası Maaka Geşur hökmdarının qızı olmuşdur. Bu yerin Betsaida Qalileyi ilə eyni yer olması ətrafında müzakirələr davam edir.

**7-ci yer.** E.ə. VIII əsrə aid qurbangahın yandırılmış səthində üzvi tullantılar üzərində aparılmış test zamanı mari-



xuana qalıqları aşkar edilmişdir. Bu, onun qədim İsraildə hər hansı dinlə əlaqəli olduğuna dair ilk dəlildir. Arad səhra qalasındakı ibadət mərkəzində qazıntılar ilk dəfə 1960-cı illərdə aparılmışdır. Yarım əsr əvvəl aparılan testlər elə bir nəticə verməmişdi. Odur ki, təkmilləşdirilmiş avadanlıq və metodlardan istifadə olunaraq yeni təcrübələr aparılmışdır. Buradakı ikinci qurbangahda buxur izlərinə rast gəlinmişdir.

**6-cı yer.** Təl-Əviv Universitetinin arxeoloqları Qüds yaxınlığındakı magistral yolun yenidən qurulması zamanı aşkarlanan məbədin e.ə. 900-cü ildə tikildiyini sübut etdilər. Bununla da Süleyman məbədinə alternativ bir məbədin olduğunu söyləyə bilərik. Yeni kəşf heyrət doğurur, ancaq Yaradana harada və necə ibadət ediləcəyi ilə bağlı mübahisələrin Əhdi-Ətiq hekayəsinə uyğundur. Bu yerin İsrail tarixindəki yeri hələ araşdırılmalıdır. Bəlkə də, bu məbəd Firon Şeşonk tərəfindən Qüds məbədinin qarət edilməsi və ya bizə məlum olmayan digər hadisələrlə bağlıdır.

**5-ci yer.** İsrailli arxeoloq Yosef Qarfinkel e.ə. XII əsrə aid Kənan məbədinin xarabalıqlarını aşkarlayıb. Bölgədəki ən əhəmiyyətli Əhdi-Ətiq şəhərlərindən biri olan Lahışda aparılan qazıntılar nəticəsində Kənan kultunda istifadə olunan əsl artefakt xəzinəsi, o cümlədən zinət əşyaları, xəncərlər və dörd düymlük iki bürünc heykəl əldə edilib. Yəqin ki, məbəddəki ən əhəmiyyətli tapıntı gümüşlə örtülmüş bürünc hökmdar əsasıdır. Qarfinkel hesab edir ki, nə vaxtsa onu Kənan tanrısı Baalın insan ölçüsündə olan heykəli tutmuşdur. Heykəlin özü tapılmamışdır, lakin qədim Kənan tanrılarının böyük heykəllərinə nadir hallarda rast gəlinir.

**4-cü yer.** Müasir Afula şəhərinin hüdudlarındakı İzreel vadisində bir yol layihəsi üzərində işləyən arxeoloqlar bir kompleks kəşf ediblər. Kompleksin İsrail hökmdarlarına, xüsusən Omri və Ahaba aid olduğu düşünülür. Kompleks Tel-İzreeldən bir neçə km məsafədə, kral Ahabın başqa bir sarayının tapıldığı yerdə yerləşir. Arxeoloqların ortaya çıxardığı iri, sütunlu tikili "indiyə qədər İsraildə tapılmış Omri sülaləsinə məxsus ən yaxşı vəziyyətdə qalan bina" kimi qəbul edilmişdir. Qazıntı yerində tapılmış gil saxlama qabları nə vaxtsa burada mərkəzləşdirilmiş qida paylama sisteminin fəaliyyət göstərdiyini təsdiqləyir.

**3-cü yer.** Türkiyəli arxeoloq Cəlal Şimşək Laodikeyada bir evdə aparılan qazıntılar zamanı xristian ibadətlərində istifadə olunan müqəddəs əşyalar tapmışdır. Mərkəzi bağın və ya həyətin ətrafında tikilmiş peristilli ev teatrın yanında yerləşmişdir və ehtimal ki, varlı adamlara məxsus olmuşdur. Həvari Paul Laodikeya kilsəsinə haqqında kolosyalılara yazdığı məktubunda bəhs olunan, lakin görünür, it-bat olmuş bir məktub göndərmişdir. Şimşəkin fikrincə, bu ev kilsəsi "birinci əsrin ortalarından etibarən Xristianlığın Laodikeyada necə yayıldığına" dair bilikləri genişləndirəcəkdir.

**2-ci yer.** Ben Qurion Universitetin professoru Yuval Qoren və onun komandası e.ə. 788-748-ci illərdə hökm sürən II Yeroboamın dövrünə aid, nərildəyən aslanın təsvir olunduğu "bulla" və ya gil möhürün həqiqi olduğunu müəyyənləşdirdilər. Bir neçə onilliklər əvvəl bədəvi bazarından az bir məbləğ qarşılığında alınan, əvvəllər saxta olduğu düşünülən gil möhürün orijinal olduğu ortaya çıxdı.

Digər tərəfdən isə, bədii saxtakarlığın aşkarlanması üzrə ixtisaslaşmış bir firma Bibliya Muzeyi kolleksiyasındakı Ölü dəniz kitabələrinin 16 fraqmentinin saxta olduğunu aşkarladı.

**1-ci yer.** Kral Manaşşeyə (e.ə. 695-642) aid olduğu ehtimal edilən sarayın qalıqları. O, "Tanrının gözü qarşısında çoxlu şər əməl törətmiş", əsir götürülmüş və tövbə etmişdir. Xarabalıq Armon-Xanasiv sahilində, cənubdan Məbəd Dağına və Qüdsün köhnə hissəsinə baxan yerdə yerləşir. "Protoeolian" daş hörməsi Birinci Məbəd dövründəki kral binalarına aid edilir.

**Məqalənin müəllifi:** Gordon Govier,
*"Artifax" jurnalının redaktoru,*
*"The Book & the Spade" radio-proqramının aparıcısı*
**Azərbaycan dilinə uyğunlaşdırdı:** Güney Namazova

## ƏKSƏR BRİTANİYALI ÖZ ÖLKƏSİNİ XRİSTİAN DÖVLƏTİ HESAB EDİR



"Christiantoday"-in verdiyi xəbərə görə, "YouGov" sosioloji mərkəzinin keçirdiyi sorğunun nəticələri göstərib ki, ada sakinlərinin yarıdan çoxu (56%) Böyük Britaniyanı xristian dövləti hesab edir. Xristianlar arasında respondentlərin 69%-i bu fikirdədir. Maraqlısı budur ki, xristian olmayanların (47%) və inancsızların (49%) xeyli hissəsi də bu fikirlə razıdır.

Xristianlığın məktəblərdə tədris edilməsinə gəlincə, britaniyalıların yalnız üçdəbiri hesab edir ki, uşaqlara digər dinlərin ənənələrindən daha çox xristian bayramları barədə məlumat vermək lazımdır. Respondentlərin yarıdan çoxu (53%) isə bildirib ki, uşaqları Xristianlıq və digər dinlərin bayramları ilə eyni dərəcədə tanış etmək lazımdır.

## PAPA KÖRPƏLƏRİN ƏNƏNƏVİ VƏFTİZ AYİNİNİ LƏĞV EDİB

Roma Papası I Fransisk koronavirus pandemiyası səbəbilə Sikstin Kapellasında keçirilən ənənəvi vəftiz ayinini ləğv edib. "Catholicnewsagency"-nin verdiyi məlumata görə, xaç suyuna salma mərasimi prixod məbədlərində həyata keçirilir.

Vəftiz ayininin Kapellada keçirilməsinin ləğvi barədə xəbəri Müqəddəs Taxt-Tacın mətbuat xidməti yayıb. "Əhalinin sağlamlıq vəziyyətinə görə və ehtiyat tədbirləri məqsədilə bu il bazar günü Sikstin Kapellasında Müqəddəs ata tərəfindən kör-



pələrin ənənəvi vəftiz ayininin keçirilməməsinə qərar verilmişdir", - deyə mətbuat xidmətindən bildirilib.

Qeyd edək ki, koronavirus epidemiyasından İtaliyada 75 mindən çox insan həyatını itirib. Bu, Avropa ölkələri arasında ən yüksək göstəricidir.

İsa Məsihin vəftiz olunması günü xristianların əsas dini bayramlarından biridir. Həmin gün Sikstin Kapellasında papalar tərəfindən körpələrin xaç suyuna salınması ənənəsinin əsasını Müqəddəs II İohan Pavel qoymuşdur.

## DİPLOMAT DÜNYADA ARTAN DİNİ DÖZÜMSÜZLÜYƏ QARŞI BİRGƏ FƏALİYYƏTƏ ÇAĞIRIB

"Catholicnewsagency"-nin məlumatına görə, Vatikan təmsilçisi Yanuş Urbançik Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) Daimi Şurasının Vyanada keçirilən iclasında "xristianlara, yəhudilərə, müsəlmanlara və digər dinlərin nümayəndələrinə qarşı artan dözümsüzlük və ayrı-seçkiliyi" qınayıb, Şuranın bu problemlərə diqqətlə yanaşacağına ümidvar olduğunu bildirib.

"Biz İsveç Sədrliyinə qarşılıqlı məsələləri həll etmək, xüsusi dözümsüzlük və ayrı-seçkilik formalarının mövcudluğunu qəbul etmək, icmaların xüsusi ehtiyaclarını nəzərə almaq kimi hərtərəfli yanaşma tövsiyə edirik", - deyə katolik rahib və Müqəddəs Taxt-Tacın ATƏT yanında daimi nümayəndəsi bildirib. O, Sədrliyi "insan hüquqları, demokratiya və gender bərabərliyinə xüsusi diqqət yetirməyə" çağırıb.

"İnsan hüquqları heç bir halda heç bir siyasi, iqtisadi, hərbi, mədəni və ya ideoloji gündəmi inkişaf etdirmək üçün istifadə olunmamalıdır", - deyə polşalı rahib diqqətə çatdırıb. Yanuş Urbançik ATƏT-in əsas vəzifəsinin bölgədə sülhü qorumaq olduğunu da xatırladıb. Diplomat "qadınların barışıq və sülh quruculuğu yolunda əvəzsiz töhfəsini" də vurğulayıb.

# FUTURİSTİK ŞƏHƏR LAYİHƏSİNİN TƏQDİMATI OLUB




Səudiyyə Ərəbistanının vəliəhd şahzadəsi Məhəmməd bin Salmanın rəhbərlik etdiyi NEOM şirkəti təbiətlə insanların harmoniya şəraitində yaşayacağı futuristik şəhərin salınması üzrə yeni "The Line" layihəsinin təqdimatını edib.

"Saudigazette" nəşri xəbər verir ki, bu layihə urbanizasiya tarixində inqilab kimi qiymətləndirilib.

Təxminən 170 kilometrlik ərazini əhatə edəcək yeni şəhərdə insanlar avtomobillər olmadan, təmiz ekoloji şəraitdə və fərqli infrastrukturdan istifadə etməklə yaşayacaq. Onun salınması üçün Səudiyyə Ərəbistanı hökuməti 48 milyard dollar vəsait ayıracaq və 380 min iş yeri açılacaq.

Uzun kəmər formasında inşa ediləcək futuristik şəhərdə bütün zəruri xidmət sahələri, habelə məktəblər, xəstəxanalar, istirahət məkanları elə yaxın dizayn ediləcək ki, insanlar müasir nəqliyyat vasitələrindən istifadə etməsinlər. Bundan başqa, texnologiyanın ən son nailiyyətləri tətbiq edilməklə, şəhər sakinlərinin digər məntəqələrə səyahəti üçün elektromobillərdən istifadə olunacaq. "Ağıllı şəhər"də süni intellektin də geniş tətbiqi nəzərdə tutulur.

# UHANDAKI NADİR COVID-19 MUZEYİ

Çinin Hubey vilayətinin paytaxtı Uhanda COVID-19 pandemiyası ilə mübarizəyə həsr olunan xüsusi muzey fəaliyyət göstərir.

Muzeydə Çinin, xüsusən də virusun ölkədə ilk ortaya çıxdığı və ən çox yayıldığı Uhan şəhərinin COVID-19 böhranı ilə mübarizəsinin necə təşkil olunmasını və bu mübarizədə qazandığı uğurları əks etdirən müxtəlif eksponatlar, o cümlədən 1100 fotoşəkil, 1000-dən çox əşya, 45 video, 18 interaktiv bölmə, habelə virtual reallıq texnologiyasına əsaslanan eksponatlar nümayiş olunur. Bu eksponatlar arasında tibb işçilərinin geyimləri, müalicə dərmanları və avadanlığı, COVID-19 pasiyentlərinin şəxsi əşyaları, onların tibb işçilərinə yazdığı təşəkkür məktubları, 76 günlük xüsusi karantin rejimi günlərində evdə qalmağa məcbur olan sakinlərin gündəlik həyatını təsvir edən əşya, şəkillər, interaktiv vasitələr var.



# NYUTON MİSİR EHRAMLARI VASİTƏSİLƏ DÜNYANIN SONUNU HESABLAMAQ İSTƏYİB



Bu ay anadan olmasının 378-ci ili qeyd edilən dahi ingilis riyaziyyatçısı və alimi İsaak Nyutonun Misir ehramları haqqında tədqiqatı dərc olunub.

Üç səhifədən ibarət və riyazi hesablamaları ehtiva edən tədqiqat dünyanın yeddi möcüzəsindən olan ehramların sirlərinə nüfuz edir.

Nyutonun Kembric Universitetindən ayrılaraq öz doğma şəhəri olan Linkolnşirdə apardığı bu tədqiqatda göstərilir ki, ehramları tikən qədim misirlilər bu üsulla Yerin ölçüsünü müəyyən etməyi bacarıblar. Dahi alim əlavə edib ki, onlar sonralar itirilən əlkimya elminə də dərindən yiyələniblər.

Nyuton hesab edirdi ki, Qədim Misirdə "firon qolu" adlanan ölçü vahidi Yer kürəsinin çevrəsini ölçməyə imkan verirdi. O bu ölçü vahidi ilə özünün Yerin cazibə qanununu da daha da təkmilləşdirəcəyinə inanırdı. Nyuton, həmçinin "firon qolu" vasitəsilə Süleyman Məbədi kimi tikililərin memarlığında sirləri açacağına, habelə dünyanın sonunu müəyyən edəcəyinə inanırdı.

Dahi alimin Misir ehramlarına dair Sotbidə saxlanılan əlyazmasını bu hərrac evinin rəsmisi Qebriel Heton dərc etdirib.

## Bakı və Abşeron üzrə namaz vaxtları ( Fevral - 2021)

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 | 06:28 | 07:50 | 12:54 | 16:17 | 18:13 | 19:16 |
| 2 | 06:27 | 07:49 | 12:54 | 16:18 | 18:14 | 19:17 |
| 3 | 06:26 | 07:48 | 12:54 | 16:20 | 18:15 | 19:18 |
| 4 | 06:25 | 07:47 | 12:55 | 16:21 | 18:17 | 19:19 |
| 5 | 06:24 | 07:46 | 12:55 | 16:22 | 18:18 | 19:20 |
| 6 | 06:23 | 07:45 | 12:55 | 16:23 | 18:19 | 19:21 |
| 7 | 06:22 | 07:44 | 12:55 | 16:24 | 18:20 | 19:22 |
| 8 | 06:21 | 07:43 | 12:55 | 16:25 | 18:21 | 19:23 |
| 9 | 06:20 | 07:42 | 12:55 | 16:26 | 18:23 | 19:24 |
| 10 | 06:19 | 07:41 | 12:55 | 16:28 | 18:24 | 19:25 |
| 11 | 06:18 | 07:40 | 12:55 | 16:29 | 18:25 | 19:26 |
| 12 | 06:17 | 07:38 | 12:55 | 16:30 | 18:26 | 19:28 |
| 13 | 06:16 | 07:37 | 12:55 | 16:31 | 18:27 | 19:29 |
| 14 | 06:15 | 07:36 | 12:55 | 16:32 | 18:28 | 19:30 |
| 15 | 06:14 | 07:35 | 12:55 | 16:33 | 18:30 | 19:31 |
| 16 | 06:13 | 07:33 | 12:55 | 16:34 | 18:31 | 19:32 |
| 17 | 06:11 | 07:32 | 12:55 | 16:35 | 18:32 | 19:33 |
| 18 | 06:10 | 07:31 | 12:55 | 16:37 | 18:33 | 19:34 |
| 19 | 06:09 | 07:29 | 12:55 | 16:38 | 18:34 | 19:35 |
| 20 | 06:08 | 07:28 | 12:55 | 16:39 | 18:35 | 19:36 |
| 21 | 06:06 | 07:27 | 12:54 | 16:40 | 18:37 | 19:37 |
| 22 | 06:05 | 07:25 | 12:54 | 16:41 | 18:38 | 19:38 |
| 23 | 06:04 | 07:24 | 12:54 | 16:42 | 18:39 | 19:40 |
| 24 | 06:02 | 07:22 | 12:54 | 16:43 | 18:40 | 19:41 |
| 25 | 06:01 | 07:21 | 12:54 | 16:44 | 18:41 | 19:42 |
| 26 | 06:00 | 07:20 | 12:54 | 16:45 | 18:42 | 19:43 |
| 27 | 05:58 | 07:18 | 12:54 | 16:46 | 18:43 | 19:44 |
| 28 | 05:57 | 07:17 | 12:53 | 16:47 | 18:44 | 19:45 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə):*** Sumqayıt **+1**, Qobustan, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5,** Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Füzuli, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Göygöl, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

** Təqvim AMEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

# MARTİN LÜTERİN KİLSƏDƏN QOVULMASININ 500 İLLİYİNƏ HƏSR OLUNMUŞ ORTAQ KATOLİK-LÜTERAN BƏYANATI DƏRC EDİLİB



Ümumdünya Lüteran Federasiyası Baş katibinin müavini Dirk Lange Federasiya ilə Müqəddəs Taxt-Tac arasında "qarşıdurmadan ünsiyyətə doğru növbəti addımlara dair" birgə kommünike barədə məlumat verib.

Ötən ilin iyun ayında Altenberq Ekümenik Müzakirə Dərnəyinin üzvü olan bir qrup katolik və protestant ilahiyyatçı Papa Fransiskə müraciət edərək 500 il əvvəl Kilsə tərəfindən Martin Lüter barəsində çıxarılan cəzanın ləğv olunmasını xahiş etmişdilər. Bu barədə Vatikanın mətbuat xidməti məlumat verib.

Qeyd edək ki, Martin Lüter 31 oktyabr 1517-ci ildə Almaniyanın Vittenberq şəhərində "95 tezis"ini elan etməklə lüteran kilsəsinin əsasını qoymuşdur. Onun bu çıxışı ilə Reformasiya hərəkatı və Qərb kilsəsinin parçalanması başlamışdır. Roma Papası X Leonun "Decet Romanum Pontificem" xüsusi bullası ilə Lüter Katolik Kilsəsindən qovulmuşdur.

Ekümenik qrup, həmçinin Alman Katolik Yepiskopları Konfransını və Almaniyadakı Yevangelist Kilsəsini 500 il əvvəl Qərb Kilsəsində parçalanmaya səbəb olmuş qarşıdurmanı aradan qaldırmaq ümidi ilə baş verənlərə görə peşmanlıq ifadə edən ortaq açıqlama verməyə çağırmışdı.

Ümumdünya Lüteran Federasiyası və Xristian Birliyinə Dəstək üzrə Papa Şurası 2021-ci ilin yanvar ayında Lüterin Kilsədən qovulmasının 500 illiyi münasibətilə birgə ibadət təşkil etməyi planlaşdırmışdı. Lakin pandemiya səbəbindən ibadət 1530-cu ildə "Auqsburq etiqadı"nın ictimaiyyətə təqdim olunduğu 25 iyun tarixinə təxirə salınmışdır.

## Yadigar söz

*Kvint Horatsi Flakk*

***Hikmətlə tənzimlənməyən güc öz məxsusi ağırlığı altında məhvə məhkumdur.***

**Baş redaktor** Səyyad ARAN

**Redaksiya şurası:** Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Arxiyepiskop Aleksandr, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV, Raman DADAŞOV (Məsul katib).

Ünvan: AZ 1001, Bakı şəhəri, Şeyx Şamil küçəsi 5
Telefon: 505 78 16; 505 78 19
E-mail: redaksiya@scwra.gov.az

**Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:**
Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51; Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70; Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40; Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97; Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84; Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95; Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59; Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00; Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30; Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23; İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmiş, "Universal Poliqraf" nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet
**Tiraj:** 1200
**Sifariş:** 355

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894